

Mənim sizə tövsiyəm ondan ibarətdir ki, orta məktəbdə necə oxumusunuz, elə də davam edin. Növbəti beş il ərzində gözəl mütəxəssis olun, cəmiyyətdə öz yerinizi tapın, öz gələcəyinizi müəyyən edin və ölkəmizin inkişafına töhfə verin. Dövlət isə hər bir istedadlı gəncə öz dəstəyini, diqqətini əsirgəməyəcəkdir. Gələcəkdə – 10 ildən, 20 ildən sonra daim xalq, Vətən, dövlət haqqında düşünün, fikirləşin. Çalışın ki, öz əməyinizlə dövlətin gücünü artırasınız.

**İlham Əliyev,**

Azərbaycan Respublikasının Prezidenti

## 2013/2014-cü TƏDRİS İLİNDƏ

### AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏKTƏBLƏRİNƏ DAXİL OLMUŞ TƏLƏBƏLƏRƏ

# PREZİDENT TƏQAÜDÜNÜN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. 2013/2014-cü tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş aşağıdakı tələbələrə Prezident təqaüdü verilsin:

Abasova Nərmin İlqar qızı
Abbasova Maya Elçin qızı
Abbaszadə Vüsal Elşən oğlu
Abdullayeva Günel Rahil qızı
Abdurahmanov Pərvin Vüqar oğlu
Ağakişiyev Murad Arzu oğlu
Ağasıyeva Günel İkirəm qızı
Ağayeva Leyla Orxan qızı
Ağazadə Aydan Mütarif qızı
Axundova Klara Tabir qızı
Alxasova Şəhla Vasif qızı
Allahverdiyev Mahmud Şahin oğlu
Allahverdiyev Yaqub Tarverdi oğlu
Babayev Samir Mübariz oğlu
Bağırov Mənsur Mahmud oğlu
Bədəlova Aytəkin Tofiq qızı
Cabbarova Banuçiçək Rəşid qızı
Camalov Əli Elmar oğlu
Carçıyeva Fəridə Radət qızı
Cavadzadə Nuranə Şahin qızı
Cəbiyeva Aygün Ələkbər qızı
Cəbrayılov Məmməd Misir oğlu
Dadaşzadə Anar Canəmir oğlu
Eldarov Nicat Telman oğlu
Əfəndiyeva Ayişə Ədalət qızı
Əhmədova Aytac Ramiz qızı
Əhmədova Nəcibə İlqar qızı
Əhmədova Nərgiz Əhməd qızı
Əhmədova Şəlalə Bəhruz qızı
Əhmədova Zeynəb Mirməcid qızı
Ələkbərov Aqil Ramazan oğlu
Ələkpərov Əlişiram Vidadi oğlu
Ələsgərova Səidə Aləddin qızı
Əmirxanlı Ceyhun Əmrah oğlu
Əsədzadə Solmaz Elçin qızı
Əsgərova Müşfiqə Qasım qızı
Əşrəfov Aqil Arzu oğlu
Fərəczadə Simuzər Nəsir qızı
Fərhadlı Nigar Fəxrəddin qızı
Hacıhəsənli Fəridə Fuad qızı
Hacılı Şamxal Asif oğlu
Hacızadə Nigar Bəxtiyar qızı
Haqverdiyeva Aysel Oqtay qızı
Həbibbəyli Tuncay Həbib oğlu
Həsənov Elgün Elşən oğlu
Hüseynov Rüfət Qəhrəman oğlu
Xəlilova Gülxanım Faiq qızı
İskəndərova Əsmər Valeh qızı
İsmayılov Məhəmməd Şahin oğlu
İsmayılova Fatma Abdulla qızı
İsmayılova Xəyalə Mehman qızı
İsmayılzadə Fuad Eldar oğlu
Kazımlı Mirəşrəf Samir oğlu
Kərimov Kamran Nurəddin oğlu
Qafarlı Sevinc Sakit qızı
Qafarlı Şahnaz Bəhman qızı
Qafarova Flora Eldar qızı
Qədirov Cavid Mövsün oğlu
Qədirova Günay Şəmsəddin qızı
Qədirzadə Sərxan Soltan oğlu
Qənbərova Vəfa İlham qızı
Quliyev Elməddin Əbülfət oğlu
Quliyev Qulu Behbud oğlu
Quliyev Toğrul Əli oğlu
Quliyeva Ruqiyyə Abbas qızı
Qurbanova Surə Urfullah qızı
Məlikli Hüseyin Əbülfəz oğlu
Məmmədli Nərmin Rövşən qızı
Məmmədov Fərid Əli oğlu
Məmmədova Arzu Qeys qızı
Məmmədova İlahə Eldəniz qızı
Məmmədova İnarə Ülfət qızı
Məmmədova Jalə Emin qızı
Məmmədova Raya Rauf qızı
Mikayılov Elşən Rövşən oğlu
Mikayılova Nərmin Oktay qızı
Murğuzova Nərminə Sahib qızı
Musayev Şəmsi Səyyad oğlu
Müslümov Osman Məmmədhüseyn oğlu
Nuri Nəzrin Etibar qızı
Paşazadə Aytən Vaqif qızı
Rəfiyev Yəhya Rasim oğlu
Rəhimli Rəhim Novruz oğlu
Rəhimov Nurlan Natiq oğlu
Rəsulov Toğrul Əlif oğlu
Rüstəmova Rəfiqə Çingiz qızı
Rzayev Cavid Bəşir oğlu
Sadıqlı Arif Mobil oğlu
Sadıqlı Ləman Elşən qızı
Seyfullayeva Gülay Sabir qızı
Səfərli Kənan Sadiq oğlu
Süleymanlı İlahə Faik qızı
Şərifov İbrahim Araz oğlu
Şıxəliyev Yunis Azər oğlu
Talıbov Qaraxan Talıb oğlu
Tofiqzadə Natiq Fəxrəddin oğlu
Umudova Tamilla Etibar qızı
Vəlişova Günel Nazim qızı
Vəliyeva Sevinc Kamil qızı
Yusifli Nurlan Yavər oğlu
Yusubov Şıxı Şakir oğlu
Zahidov Rasif Salam oğlu

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 13 sentyabr 2013-cü il**

# Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında təhsil sahəsində ən yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının ali məktəblərinə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş tələbələr üçün Prezident təqaüdünün məbləği artırılaraq, 2013-cü il sentyabrın 1-dən 165 (yüz altmış beş) manat müəyyən edilsin.

2. "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanının 1-ci hissəsində "150 (yüz əlli)" sözləri "165 (yüz altmış beş)" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 14 sentyabr 2013-cü il



**M.Abbaszadə,**
**Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri**

## ƏZİZ GƏNCLƏR!

Sizi qəbul imtahanlarında yüksək nəticələr əldə etməyiniz, yaxşıların ən yaxşıları səviyyəsinə ucalmağınız münasibətilə səmimi qəlbdən təbrik edirəm. Hamınıza gələcək həyatınızda və təhsilinizdə böyük uğurlar, möhkəm cansağlığı və xoşbəxtlik arzu edirəm. Qazandığınız müvəffəqiyyət sizin bundan sonrakı fəaliyyətinizin etibarlı bünövrəsidir. Sizin gələcəkdə yüksək səviyyəli mütəxəssis, alim, pedaqoq, ictimai və dövlət xadimi kimi yetişmək potensialınız vardır. Siz özünüzü ölkəmizin, xalqımızın qarşısında duran vəzifələrin həllində fəal iştirak etməyə hazırlamalı, bunun üçün ilk növbədə yüksək bilik və bacarıqlara yiyələnməyə davam etməli, yaxşı mütəxəssis olmağa çalışmalısınız.

Siz öz bilik və bacarığınız, təcrübəniz, özünüzə tələbkarlığınız, əməksevərliyiniz və çalışqanlığınızla şagirdlərə – gələcək abituriyentlərə örnəksiniz. Ümidvaram ki, ali təhsil pilləsində də siz tələbə həmkarlarınıza nümunə olacaqsınız.

Siz gənc həyatınızın ilk ən böyük imtahanından şərəflə çıxmısınız. Amma qarşıda hələ sizi müxtəlif imtahanlar gözləyir. Arzu edirəm ki, bu imtahanlardan da alnıaçıq çıxasınız.

Həyatda insan üçün ən qiymətli sərvət vaxtdır. Çünki görülən bütün işlər, qazanılan bütün uğurlar vaxt çərçivəsində əldə olunur. Bu baxımdan siz ən varlı insanlarsınız, çünki hələ 17-18 yaşınız var, gəncliyə xas zəngin vaxt ehtiyatına maliksiniz. Bu zəngin sərvəti itirmək, israf etmək olmaz. Çalışın həyatınızın hər anı səmərəli, mənalı və maraqlı keçsin, yeni-yeni nailiyyətlərlə zənginləşsin. Uğurlarınız davamlı, dayanıqlı və daimi olsun.

# PREZİDENT TƏQAÜDÇÜLƏRİ HAQQINDA MƏLUMAT

Azərbaycan Respublikası Prezidentinin 13 sentyabr 2013-cü il tarixli sərəncamına əsasən bu il Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş 102 tələbəyə Prezident təqaüdü təyin edilmişdir. Eyni zamanda dövlət başçısının 14 sentyabr 2013-cü il tarixli Fərmanı ilə təhsil sahəsində ən yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmə məqsədilə Prezident təqaüdünün məbləği artırılmışdır.

I ixtisas qrupunda Prezident təqaüdünə 679 bal və daha yüksək nəticə göstərmiş tələbələr layiq görülmüşlər. Onlardan 6 nəfəri qız, 19 nəfəri isə oğlandır.

II ixtisas qrupunda Prezident təqaüdünə 665 bal və daha yüksək nəticə göstərmiş tələbələr layiq görülmüşlər. Onlardan 9 nəfəri qız, 15 nəfəri isə oğlandır.

III ixtisas qrupunda Prezident təqaüdünə 686 bal və daha yüksək nəticə göstərmiş tələbələr layiq görülmüşlər. Onlardan 20 nəfəri qız, 5 nəfəri isə oğlandır.

IV ixtisas qrupunda Prezident təqaüdünə 680 bal və daha yüksək nəticə göstərmiş tələbələr layiq görülmüşlər. Onlardan 19 nəfəri qız, 7 nəfəri isə oğlandır.

Naxçıvan Muxtar Respubikasından isə I ixtisas qrupu üzrə qəbul imtahanında 677 bal toplamış 1 nəfər oğlan və III ixtisas qrupunda 686 bal toplamış 1 nəfər qız Prezident təqaüdünə layiq görülmüşlər.

Ümumilikdə Prezident təqaüdünə layiq görülmüş tələbələrdən 55 nəfəri qız, 47 nəfəri isə oğlandır.

Prezident təqaüdçülərindən 27 nəfər Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına, 26 nəfər Azərbaycan Tibb Universitetinə, 19 nəfər "Qafqaz" Universitetinə, 15 nəfər Bakı Ali Neft Məktəbinə, 6 nəfər Azərbaycan Diplomatik Akademiyasına, 4 nəfər Bakı Dövlət Universitetinə, 2 nəfər İnformasiya Texnologiyaları Universitetinə, 1 nəfər Azərbaycan Dillər Universitetinə, 1 nəfər Azərbaycan Dövlət İqtisad Universitetinə, 1 nəfər Naxçıvan Dövlət Universitetinə daxil olmuşlar.

**Aşağıda Prezident təqaüdçülərinin bitirdikləri məktəblər üzrə siyahısını təqdim edirik:**

| QRUP | Bakı şəhəri | 16 nəfər |
|---|---|---|
| I | 244 saylı orta məktəb – *Qafarlı Sevinc Sakit qızı* | 1 |
| | Bakı Özəl Türk liseyi – *Ağakişiyev Murad Arzu oğlu* | 1 |
| | Nefçi Qurban adına 288 saylı orta məktəb – *Cəbrayılov Məmməd Misir oğlu* | 1 |
| | 3 saylı orta məktəb – *Şərifov İbrahim Araz oğlu* | 1 |
| | Bakı Türk liseyi – *Qədirzadə Sərxan Soltan oğlu, Talıbov Qaraxan Talıb oğlu* | 2 |
| | Bakı Avropa liseyi – *Sadıqlı Ləman Elşən qızı* | 1 |
| | 269 saylı orta məktəb – *Umudova Tamilla Etibar qızı* | 1 |
| | 221 saylı orta məktəb – *Həsənov Elgün Elşən oğlu* | 1 |
| | 43 saylı məktəb-lisey kompleksi – *Musayev Şəmsi Səyyad oğlu* | 1 |
| | 291 saylı "Araz" ekologiya liseyi – *Sadıqlı Arif Mobil oğlu* | 1 |
| | 226 saylı orta məktəb – *Ələkpərov Əlişiram Vidadi oğlu* | 1 |
| | Akademik Z.Əliyeva adına lisey – *Rəfiyev Yəhya Rasim oğlu, Rəhimli Rəhim Novruz oğlu* | 2 |
| | 2 saylı texniki və humanitar elmlər liseyi – *Vəlişova Günel Nazim qızı* | 1 |
| | S.Bəhlulzadə adına Xarici dillər təmayüllü gimnaziya – *Quliyev Qulu Behbud oğlu* | 1 |

| | | |
|---|---|---|
| I | **Sumqayıt şəhəri** | **1 nəfər** |
| | Təbiət elmləri təmayüllü gimnaziya – *Abasova Nərmin İlqar qızı* | 1 |
| | **Naxçıvan MR Şərur rayonu** | **1 nəfər** |
| | Ə.Mahmudov adına Şərur Türk liseyi – *Həbibbəyli Tuncay Həbib oğlu* | 1 |
| | **Gəncə şəhəri** | **1 nəfər** |
| | 26 saylı məktəb-lisey kompleksi – *Hüseynov Rüfət Qəhrəman oğlu* | 1 |
| | **Şirvan şəhəri** | **1 nəfər** |
| | Bakı Özəl Türk liseyi Şirvan filialı – *Məlikli Hüseyin Əbülfəz oğlu* | 1 |
| | **Zaqatala rayonu** | **1 nəfər** |
| | 1 saylı şəhər orta məktəbi – *Allahverdiyev Mahmud Şahin oğlu* | 1 |
| | **Mingəçevir şəhəri** | **1 nəfər** |
| | Bakı Özəl Türk liseyinin Mingəçevir Filialı – *Məmmədov Fərid Əli oğlu* | 1 |
| | **Lənkəran rayonu** | **1 nəfər** |
| | Bakı Özəl Türk liseyinin Lənkəran Filialı – *Kazımlı Mirəşrəf Samir oğlu* | 1 |
| | **Göyçay rayonu** | **1 nəfər** |
| | Qızılağac kənd orta məktəbi – *Mikayılov Elşən Rövşən oğlu* | 1 |
| | **Salyan rayonu** | **1 nəfər** |
| | 2 saylı şəhər orta məktəbi – *Ələsgərova Səidə Aləddin qızı* | 1 |
| | **İsmayıllı rayonu** | **1 nəfər** |
| | Təzəkənd kənd orta məktəbi – *Ələkbərov Aqil Ramazan oğlu* | 1 |

| **QRUP** | **Bakı şəhəri** | **17 nəfər** |
|---|---|---|
| II | 277 saylı orta məktəb – *Səfərli Kənan Sadiq oğlu* | 1 |
| | 318 saylı orta məktəb – *Rəhimov Nurlan Natiq oğlu* | 1 |
| | 53 saylı orta məktəb – *Yusubov Şıxı Şakir oğlu* | 1 |
| | 204 saylı orta məktəb – *Qədirov Cavid Mövsün oğlu* | 1 |
| | Bakı Türk Anadolu liseyi – *Quliyev Elməddin Əbülfət oğlu* | 1 |
| | Bakı Türk liseyi – *Tofiqzadə Natiq Fəxrəddin oğlu* | 1 |
| | Akademik Zərifə Əliyeva adına lisey – *Abbaszadə Vüsal Elşən oğlu, Qənbərova Vəfa İlham qızı* | 2 |
| | Texniki humanitar lisey – *Eldarov Nicat Telman oğlu* | 1 |
| | 72 saylı məktəb-lisey – *Bədəlova Aytəkin Tofiq qızı, Məmmədova Raya Rauf qızı* | 2 |
| | 291 saylı "Araz" ekologiya liseyi – *Məmmədova İnarə Ülfət qızı* | 1 |
| | 80 saylı orta məktəb – *Məmmədova İlahə Eldəniz qızı* | 1 |
| | 32 saylı orta məktəb – *Dadaşzadə Anar Canəmir oğlu, Hacılı Şamxal Asif oğlu* | 2 |
| | 275 saylı orta məktəb – *Qədirova Günay Şəmsəddin qızı* | 1 |
| | 276 saylı orta məktəb – *Fərəczadə Simuzər Nəsir qızı* | 1 |
| | **Sumqayıt şəhəri** | **3 nəfər** |
| | 29 saylı orta məktəb – *Rzayev Cavid Başir oğlu* | 1 |
| | Texniki və təbiət elmləri liseyi – *Rəsulov Toğrul Əlif oğlu* | 1 |
| | "İstedad" liseyi – *Quluyev Toğrul Əli oğlu* | 1 |
| | **Mingəçevir şəhəri** | **1 nəfər** |
| | İ.Kişiyev adına 17 saylı şəhər orta məktəbi – *İsmayılzadə Fuad Eldar oğlu* | 1 |

| QRUP | Naxçıvan MR Babək rayonu | 1 nəfər |
|---|---|---|
| II | E.Əliyev adına Nehrəm kənd 2 saylı orta məktəbi – *Bağırov Mənsur Mahmud oğlu* | 1 |
| | **Yevlax rayonu** | **1 nəfər** |
| | Səmədabad kənd orta məktəbi – *Əhmədova Zeynəb Mirməcid qızı* | 1 |
| | **Xızı rayonu** | **1 nəfər** |
| | Sitalçay kənd orta məktəbi – *Süleymanlı İlahə Faik qızı* | 1 |

| QRUP | Bakı şəhəri | 8 nəfər |
|---|---|---|
| III | 258 saylı orta məktəb – *İsmayılov Məhəmməd Şahin oğlu* | 1 |
| | 240 saylı orta məktəb – *Abdullayeva Günel Rahil qızı* | 1 |
| | 205 saylı orta məktəb – *Yusifli Nurlan Yavər oğlu* | 1 |
| | Akademik Z.Əliyeva adına lisey – *Hacızadə Nigar Bəxtiyar qızı* | 1 |
| | 238 saylı orta məktəb – *Abbasova Maya Elçin qızı* | 1 |
| | 270 saylı orta məktəb – *Xəlilova Gülxanım Faiq qızı* | 1 |
| | Bakı Türk liseyi – *Əsədzadə Solmaz Elçin qızı* | 1 |
| | 20 saylı məktəb-lisey – *Camalov Əli Elmar oğlu* | 1 |
| | **Sumqayıt şəhəri** | **3 nəfər** |
| | Texniki və təbiət elmləri liseyi – *Qafarova Flora Eldar qızı,*<br>*İsmayılova Xəyalə Mehman qızı* | 2 |
| | Sumqayıt Özəl Türk liseyi – *Əşrəfov Aqil Arzu oğlu* | 1 |
| | **Mingəçevir şəhəri** | **1 nəfər** |
| | M.Hüseynzadə adına 3 saylı şəhər orta məktəbi – *Məmmədli Nərmin Rövşən qızı* | 1 |
| | **Naxçıvan şəhəri** | **2 nəfər** |
| | Ə.Sultanlı adına 10 saylı orta məktəb – *Qurbanova Surə Urfulla qızı* | 1 |
| | Heydər Əliyev adına məktəb – *İsmayılova Fatma Abdulla qızı* | 1 |
| | **Naxçıvan MR Şərur rayonu** | **2 nəfər** |
| | M.Seyidov adına 2 saylı şəhər orta məktəbi – *Əsgərova Müşfiqə Qasım qızı* | 1 |
| | Y.Məmmədov adına Dizə kənd orta məktəbi – *Mikayılova Nərmin Oktay qızı* | 1 |
| | **Tovuz rayonu** | **1 nəfər** |
| | Y.Sadıqov adına Bozalqanlı kənd orta məktəbi – *Murğuzova Nərminə Sahib qızı* | 1 |
| | **Şəki rayonu** | **2 nəfər** |
| | Oxud kənd orta məktəbi – *Hacıhəsənli Fəridə Fuad qızı* | 1 |
| | İnçə Zunud kənd orta məktəbi – *Abdurahmanov Pərvin Vüqar oğlu* | 1 |
| | **Lənkəran rayonu** | **1 nəfər** |
| | 10 saylı şəhər orta məktəbi – *Məmmədova Jalə Emin qızı* | 1 |
| | **Qəbələ rayonu** | **2 nəfər** |
| | Zarağan kənd 1 saylı orta məktəb – *Qafarlı Şahnaz Bəhman qızı* | 1 |
| | 5 saylı şəhər orta məktəbi – *Əfəndiyeva Ayişə Ədalət qızı* | 1 |
| | **İsmayıllı rayonu** | **2 nəfər** |
| | 1 saylı şəhər orta məktəbi – *Cəbiyeva Aygün Ələkbər qızı* | 1 |
| | Təzəkənd kənd orta məktəbi – *Ağazadə Aydan Mütarif qızı* | 1 |
| | **Göyçay rayonu** | **1 nəfər** |
| | Ləkçılpaq kənd 1 saylı orta məktəbi – *Əhmədova Şəlalə Bəhruz qızı* | 1 |
| | **Ağcabədi rayonu** | **1 nəfər** |
| | S.Vurğun adına 4 saylı şəhər orta məktəbi – *Vəliyeva Sevinc Kamil qızı* | 1 |

| QRUP | Bakı şəhəri | 9 nəfər |
|---|---|---|
| | 98 saylı orta məktəb – *Müslümov Osman Məmmədhüseyn oğlu* | 1 |
| | "Zəngi" liseyi – 289 saylı orta məktəb – *Rüstəmova Rəfiqə Çingiz qızı* | 1 |
| | 115 saylı orta məktəb – *Haqverdiyeva Aysel Oqtay qızı* | 1 |
| | Bakı Türk liseyi – *Nuri Nəzrin Etibar qızı* | 1 |
| | 72 saylı məktəb-lisey – *Quliyeva Ruqiyyə Abbas qızı* | 1 |
| | 5 saylı orta məktəb – *Ağayeva Leyla Orxan qızı* | 1 |
| | İ.Hacıyev adına "Tərəqqi" liseyi – *Fərhadlı Nigar Fəxrəddin qızı* | 1 |
| | 287 saylı "Zəkalar" liseyi – *Əhmədova Nəcibə İlqar qızı* | 1 |
| | 299 saylı orta məktəb – *Allahverdiyev Yaqub Tarverdi oğlu* | 1 |
| | **Sumqayıt şəhəri** | **1 nəfər** |
| | "İstedad" liseyi – *Cabbarova Banuçiçək Rəşid qızı* | 1 |
| | **Gəncə şəhəri** | **1 nəfər** |
| | 42 saylı şəhər orta məktəbi – *Məmmədova Arzu Qeys qızı* | 1 |
| | **Mingəçevir şəhəri** | **2 nəfər** |
| | R.Mirabov adına 7 saylı şəhər orta məktəbi – *Paşazadə Aytən Vaqif qızı* | 1 |
| | Bakı Özəl Türk liseyinin Mingəçevir filialı – *Kərimov Kamran Nurəddin oğlu* | 1 |
| | **Şəki rayonu** | **2 nəfər** |
| | Biləcik kənd 1 saylı orta məktəbi – *Ağasıyeva Günel İkirəm qızı* | 1 |
| | 5 saylı şəhər orta məktəbi – *Alxasova Şəhla Vasif qızı* | 1 |
| | **İmişli rayonu** | **1 nəfər** |
| **IV** | A.Eminov adına 7 saylı şəhər orta məktəbi – *İskəndərova Əsmər Valeh qızı* | 1 |
| | **Tovuz rayonu** | **1 nəfər** |
| | M.Məmmədov adına Yuxarı Öysüzlü kənd orta məktəbi – *Axundova Klara Tabir qızı* | 1 |
| | **Ağdam rayonu** | **1 nəfər** |
| | 37 saylı orta məktəb – *Carçıyeva Fəridə Radət qızı* | 1 |
| | **Göyçay rayonu** | **1 nəfər** |
| | Ləkçılpaq kənd 1 saylı orta məktəbi – *Əhmədova Nərgiz Əhməd qızı* | 1 |
| | **Lənkəran rayonu** | **1 nəfər** |
| | Bakı Özəl Türk liseyinin Lənkəran filialı – *Şıxəliyev Yunis Azər oğlu* | 1 |
| | **Masallı rayonu** | **1 nəfər** |
| | 3 saylı şəhər orta məktəbi – *Seyfullayeva Gülay Sabir qızı* | 1 |
| | **Füzuli rayonu** | **1 nəfər** |
| | Horadiz qəsəbə 2 saylı orta məktəbi – *Əhmədova Aytac Ramiz qızı* | 1 |
| | **İsmayıllı rayonu** | **1 nəfər** |
| | Cülyan kənd orta məktəbi – *Əmirxanlı Ceyhun Əmrah oğlu* | 1 |
| | **Laçın rayonu** | **1 nəfər** |
| | Çıraqlı kənd orta məktəbi – *Babayev Samir Mübariz oğlu* | 1 |
| | **Cəlilabad rayonu** | **1 nəfər** |
| | H.Əliyev adına Alar kənd 1 saylı orta məktəbi – *Zahidov Rasif Salam oğlu* | 1 |
| | **Xocavənd rayonu** | **1 nəfər** |
| | Xocavənd şəhər 2 saylı orta məktəbi – *Cavadzadə Nuranə Şahin qızı* | 1 |

# QƏBUL İMTAHANLARINDA 600-dən YUXARI BAL TOPLAMIŞ GƏNCLƏR HAQQINDA MƏLUMAT

**Bu il respublikanın ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarında 96 min 720 abituriyent iştirak etmişdir. Abituriyentlərdən 1617 nəfəri 600-baldan yuxarı nəticə göstərmişdir. Yüksəkballılar respublikanın, demək olar, bütün şəhər və rayonlarını, o cümlədən bəzi kənd məktəblərini təmsil edirlər. Yüksək nəticə göstərənlər I qrupda 371, II qrupda 301, III qrupda 542, IV qrupda 403 nəfərdir. 6 nəfər isə maksimal nəticə (700 bal) əldə etmişdir. Onlardan 4-ü III qrupun, 2-si isə IV qrupun abituriyentləridir.**

Yüksək bal toplamış gənclər Azərbaycan Respublikasının aşağıdakı ali məktəblərinə qəbul olmuşlar:

| | |
|---|---|
| Azərbaycan Tibb Universiteti | 385 nəfər |
| Bakı Dövlət Universiteti | 261 nəfər |
| "Qafqaz" Universiteti | 197 nəfər |
| Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası | 191 nəfəri |
| Bakı Ali Neft Məktəbi | 121 nəfər |
| Azərbaycan Dillər Universiteti | 121 nəfər |
| Azərbaycan Diplomatik Akademiyası | 70 nəfər |
| İnformasiya Texnologiyaları Universiteti | 60 nəfər |
| Azərbaycan Dövlət İqtisad Universiteti | 50 nəfər |
| Azərbaycan Dövlət Neft Akademiyası | 47 nəfər |
| Naxçıvan Dövlət Universiteti | 23 nəfər |
| Gəncə Dövlət Universiteti | 10 nəfər |
| Xəzər Universiteti | 6 nəfər |
| Bakı Slavyan Universiteti | 4 nəfər |
| Azərbaycan Turizm İnstitutu | 4 nəfər |
| "Azərbaycan" Universiteti | 3 nəfər |
| Azərbaycan Müəllimlər İnstitutu | 2 nəfər |
| Lənkəran Dövlət Universiteti | 2 nəfər |
| M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı | 2 nəfər |
| Milli Aviasiya Akademiyası | 1 nəfər |
| Azərbaycan Texniki Universiteti | 1 nəfər |
| Xüsusi təyinatlı ali təhsil müəssisələri | 50 nəfər |
| Türkiyənin ali təhsil müəssisəsi | 1 nəfər |

# YÜKSƏK BALLILARININ SAYI DAHA ÇOX OLAN TƏHSİL MÜƏSSİSƏLƏRİ

**(2013-cü ilin məzunları)***

| № | Məktəb | Məktəb üzrə | 600-dən yuxarı | 600-dən yuxarı bal-lıların faizi (məktəb üzrə abituriyentlərin ümumi sayına |
|---|---|---|---|---|
| 1 | Gəncə Azərbaycan-Türkiyə özəl liseyi | 30 | 14 | 46.67 |
| 2 | Naxçıvan türk liseyi | 29 | 13 | 44.83 |
| 3 | Sumqayıt şəhəri Texniki və təbiət elmləri liseyi | 48 | 19 | 39.58 |
| 4 | Bakı Türk liseyi (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) | 61 | 23 | 37.70 |
| 5 | Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya | 43 | 15 | 34.88 |
| 6 | Şərur türk liseyi | 40 | 13 | 32.50 |
| 7 | Bakı Özəl türk liseyinin Mingəçevir filialı | 43 | 12 | 27.91 |
| 8 | Bakı şəhəri Akademik Z.Əliyeva adına lisey | 141 | 39 | 27.66 |
| 9 | Bakı Özəl türk liseyinin Lənkəran filialı | 37 | 10 | 27.03 |
| 10 | BDU-nun nəzdində "Gənc istedadlar" liseyi | 38 | 10 | 26.32 |
| 11 | Bakı Türk Anadolu liseyi | 32 | 8 | 25.00 |
| 12 | Bakı Özəl türk liseyinin Ağdaş filialı | 41 | 10 | 24.39 |
| 13 | Sumqayıt Özəl türk liseyi | 39 | 8 | 20.51 |
| 14 | Bakı özəl türk kompüter liseyi "Dədə Qorqud" filialı | 48 | 9 | 18.75 |
| 15 | Şəki rayonu 5 saylı şəhər orta məktəbi | 28 | 5 | 17.86 |
| 16 | Ağdaş rayonu Texniki, təbiət və humanitar təmayüllü internat tipli gimnaziya | 24 | 4 | 16.67 |
| 17 | Mingəçevir şəhər təbiət-riyaziyyat və humanitar elmlər təmayüllü lisey | 43 | 7 | 16.28 |
| 18 | Bakı Avropa liseyi | 52 | 8 | 15.38 |
| 19 | Bakı Özəl türk liseyi | 65 | 10 | 15.38 |
| 20 | Bakı şəhəri Müasir Təhsil Kompleksi | 20 | 3 | 15.00 |
| 21 | Şəki rayonu 14 saylı şəhər orta məktəbi | 20 | 3 | 15.00 |
| 22 | Bakı şəhəri Texniki humanitar lisey | 122 | 18 | 14.75 |
| 23 | Sumqayıt şəhəri "İstedad" liseyi | 34 | 5 | 14.71 |

| | | | | |
|---|---|---|---|---|
| 24 | Bakı şəhəri 291 saylı "Araz" ekologiya liseyi | 49 | 7 | 14.29 |
| 25 | Bakı şəhəri 72 saylı məktəb-lisey | 70 | 10 | 14.29 |
| 26 | Şəki rayonu Baş Zəyzid kənd orta məktəbi | 21 | 3 | 14.29 |
| 27 | Bakı şəhəri 261 saylı məktəb-lisey | 65 | 9 | 13.85 |
| 28 | Atatürk liseyi (Türk Dünyası araşdırmaları vəqfi) | 29 | 4 | 13.79 |
| 29 | Gəncə şəhəri 31 saylı şəhər orta məktəbi | 29 | 4 | 13.79 |
| 30 | Ağdaş rayonu Şəhər 1 saylı orta məktəbi | 29 | 4 | 13.79 |
| 31 | Bərdə rayonu 4 saylı şəhər orta məktəbi | 30 | 4 | 13.33 |
| 32 | Salyan rayonu 3 saylı şəhər orta məktəbi | 23 | 3 | 13.04 |
| 33 | İsmayıllı rayonu Təzəkənd kənd orta məktəbi | 25 | 3 | 12.00 |
| 34 | Bakı şəhəri 289 saylı orta məktəb -"Zəngi" liseyi | 102 | 12 | 11.76 |
| 35 | Sumqayıt şəhəri "Təfəkkür" liseyi | 34 | 4 | 11.76 |
| 36 | Heydər Əliyev adına lisey | 130 | 15 | 11.54 |
| 37 | Naxçıvan şəhər qızlar liseyi | 26 | 3 | 11.54 |
| 38 | Neftçala rayonu Aşağı Surra kənd orta məktəbi | 26 | 3 | 11.54 |
| 39 | Bakı şəhəri 251 saylı orta məktəb | 61 | 7 | 11.48 |
| 40 | Şərur rayonu 2 saylı şəhər orta məktəbi | 45 | 5 | 11.11 |
| 41 | Bakı şəhəri 147 saylı texniki-humanitar təmayüllü lisey | 28 | 3 | 10.71 |
| 42 | Bakı şəhəri 107 saylı orta məktəb | 28 | 3 | 10.71 |
| 43 | Bakı şəhəri 58 saylı orta məktəb | 47 | 5 | 10.64 |
| 44 | Bakı şəhəri 287 saylı "Zəkalar" liseyi | 58 | 6 | 10.34 |
| 45 | Ordubad rayonu 3 saylı şəhər orta məktəbi | 29 | 3 | 10.34 |
| 46 | Ağcabədi rayonu 3 saylı şəhər məktəb-liseyi | 39 | 4 | 10.26 |
| 47 | Bakı şəhəri "Elitar" gimnaziya | 49 | 5 | 10.20 |
| 48 | Şahbuz rayonu Keçili kənd orta məktəbi | 20 | 2 | 10.00 |
| 49 | Gədəbəy rayonu Ağamalı kənd orta məktəbi | 20 | 2 | 10.00 |
| 50 | Bərdə rayonu Xanqaraqoyunlu kənd orta məktəbi | 20 | 2 | 10.00 |

* Siyahıya abituriyentlərinin sayı 20-dən az olmayan təhsil müəssisələri daxil edilmişdir.

*Bu gün Azərbaycan gəncləri biliklərə çox meyillidirlər.*
*Gənclərimiz istəyirlər ki, yaxşı mütəxəssis, yaxşı peşəkar olsunlar…*
*Gələcəkdə ölkəmizi gənclərimiz idarə edəcəklər.*
*Ölkəmizin necə inkişaf edəcəyi onlardan asılı olacaqdır.*

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

# ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ GƏNCLƏRLƏ MÜSAHİBƏLƏR

**Ali məktəblərə qəbul imtahanlarında yüksək nəticə göstərənlərin təcrübəsi hər zaman ictimaiyyətin diqqət mərkəzində olan məsələlərdəndir. TQDK bunu nəzərə alaraq əvvəlki illərdə olduğu kimi cari ildə də hər ixtisas qrupu üzrə imtahanların nəticələrini açıqladıqca yüksək nəticə qazanan abituriyentlərin, eləcə də maksimal bal toplayanların sayı barədə də ictimaiyyətə geniş məlumat verib. Bildirilib ki, qəbul imtahanlarında 8 nəfər rekord nəticə göstərib. Onlardan I ixtisas qrupunda 1 nəfər 695, II ixtisas qrupunda 1 nəfər 690, III ixtisas qrupunda 4 nəfər 700, IV ixtisas qrupunda isə 2 nəfər 700 ballıq nəticə göstərib.**

**Jurnalımız da öz ənənəsinə sadiq qalaraq ən yüksək nəticələr əldə edən həmin abituriyentləri cəmiyyətə daha yaxından tanıtmaq, onların təcrübələrini öyrənmək və yaymaq məqsədilə onlar haqqında məqalə və müsahibələr hazırlayıb. Həmin materialları sizə təqdim edirik.**



*Sevinc Qafarlı Bakı şəhərində anadan olub. I sinfə Binəqədi rayonu 244 saylı orta məktəbə gedib. Təhsilini həmin məktəbdə başa vurub. Məktəb illərində əlaçı olub. Qəbul imtahanında I qrup üzrə ən yüksək nəticə (695 bal) əldə edərək Bakı Ali Neft Məktəbinin kimya mühəndisliyi ixtisasına dövlət sifarişi əsasında qəbul olub.*

Söhbət əsnasında Sevinc bildirdi ki, IX sinifə kimi o, IV ixtisas qrupuna hazırlaşırmış. Lakin IX sinfin sonlarında fikrini dəyişərək I ixtisas qrupuna sənəd vermək qərarına gəlir. I qrupun fənlərini daha çox sevdiyindən həmin qrup üzrə hazırlaşmaq ona rahat olub. I qrupun IV qrupdan yalnız bir fənn ilə (IV qrupda – biologiya, I qrupda – xarici dil) fərqləndiyini deyən Sevinc onu da qeyd etdi ki, ona ingilis dilini öyrənmək daha vacib olduğu üçün I ixtisas qrupuna üstünlük verib. Bu seçimə ali məktəbi I ixtisas qrupu üzrə bitirdikdən sonra iş tapmaq imkanının asanlığı mülahizəsi də təsir göstərib.

Sevinc yüksək nəticə göstərəndən sonra məhz Bakı Ali Neft Məktəbinin Kimya mühəndisliyi ixtisasını seçməsinə də münasibət bildirdi. Qeyd etdi ki, bu ali məktəbin yeni açılması və burada tədrisin ingilis dilində aparılması diqqətini daha çox cəlb edib: "Tədris sisteminin ingilis dilində olması, düzü, əvvəlcə məni bir az qorxutdu, amma sonra gələcəyim üçün ingilis dilini bilməyin çox vacib olduğunu düşündüm. Həm də Bakı Ali Neft Məktəbini bitirən məzunların iki diplom – Böyük Britaniya Heriot-Yatt Universitetinin və Bakı Ali Neft Məktəbinin diplomunu alacağını nəzərə alaraq bu ali təhsil müəssisəsinə daxil olmağa qərar verdim".

***“Hər bir abituriyent qarşısına aydın məqsəd qoymalı və nə üçün çalışdığını dərk etməlidir”***

Qəbul imtahanına hazırlıq mərhələsi barədə danışarkən Sevinc maraqlı məsələlərə toxundu. Bildirdi ki, abituriyent qəbul kampaniyasına qoşularkən, ilk növbədə qarşısına gərək aydın məqsəd qoysun və nə üçün çalışdığını dərk etsin: “Bunu dərk edərsə, məncə, hər bir abituriyent dərslərə həvəslə, məsuliyyətlə yanaşar. Düzdür, hazırlıq mərhələsi əslində çətin bir dövrdür. Lakin bu çətinliyi, məncə, hər bir kəs aşa bilər, yetər ki, qarşısına aydın, ciddi məqsəd qoysun. Məqsədə çatdıqda, zəhmətin bəhrəsini gördükdə çətinlik sevinclə əvəzlənir. Çünki zəhmətin bəhrəsi şirin olur”.

Sevinc imtahana hazırlıq dövründə qarşılaşdığı çətinliklərdən də danışdı. Bildirdi ki, çətin günləri dərsdən çıxıb hazırlıqlara getdiyi vaxtlar olub. “Bu müddətdə istirahətə vaxt ayıra bilmirdim. Dincəlməyə çox az vaxt qalırdı. İyun-iyul aylarında – isti günlərdə isə çox yorulurdum. Düşünürdüm ki, bircə vaxt tez gəlib çatsın, imtahanı verib rahat olum”.

Dərslər arasında vaxt bölgüsündən danışarkən Sevinc bildirdi ki, vaxt bölgüsü gün ərzində olan hazırlıq məşğələlərinin sayından asılı idi. Hazırlıqlarla əlaqədar gün ərzində, demək olar ki, evdə olmurdum. Axşam evə gələndən sonra dərslərimi oxuyur, çox də gecəyə qalmırdım, saat 11 və ya 12-yə qədər oxuduqdan sonra yatırdım. İstirahətə az vaxt qalsa da, qarşıma qoyduğum məqsəd mənə yorğunluğumu unutdururdu.

***“Yüksək bal toplamağın sirri”***

Yüksək bal toplamasının sirrini soruşduqda Sevinc qeyd etdi ki, əslində burada elə bir sirr yoxdur. Sadəcə, dərslərini aşağı siniflərdən yaxşı oxuduğundan belə nəticə əldə edə bilib: “Mən bütün şagirdlərə məsləhət görürəm ki, aşağı siniflərdən yaxşı oxusunlar ki, təməlləri möhkəm olsun. Bizim məktəbdə dərslər yaxşı tədris olunduğu üçün mənim bazam yaxşı olub. Ona görə də hazırlıqlara gedəndə aşağı siniflərdə öyrəndiklərimin mənə çox köməyi olurdu və bildiklərimi bir növ təkrarlayırdım. Sınaqlara gedəndə də nəticələrim yüksək olurdu.Bu da oxumağa həvəsimi daha da artırırdı. Oxuduqca bundan da artığına nail ola biləcəyimə inamım güclənirdi. Məncə, hər şeyin təməlində həvəs durur. İnsan nəyə həvəslə yanaşarsa, ona nail olar”.

***“Əsas məqsədim Prezident təqaüdünə düşmək idi”***

Sevinc deyir ki, X sinifdə oxuyanda əsas məqsədim 600-dən, XI sinifdə isə 670-dən yuxarı bal toplayaraq Prezident təqaüdünə düşmək idi. Qəbul imtahanında 700 bal deyil, 695 bal topladığıma heç də təəssüflənmirəm: “Mənim üçün ən yadda qalan bal 685 bal olub. Çünki sınaqların birində ən yüksək nəticəm 685 bal olmuşdu və bu, mənə çox şirin gəlirdi. Təbii ki, 700 bal toplasaydım daha çox sevinərdim. Amma 695 bal da yüksək nəticədir. Bu, mənim gərgin zəhmətimin bəhrəsidir”.

***“Təhsilimi xaricdə deyil, Azərbaycanda davam etdirmək fikrindəyəm”***

Sevinc Qafarlı söhbət zamanı gələcəkdə təhsilini xaricdə davam etdirmək fikrində olmadığını bildirdi. “Artıq Azərbaycanda da yüksək səviyyədə, hətta ingilis dilində ali təhsil verən universitetlər vardır. Dərsləri yaxşı oxumaqla Azərbaycanda da istənilən nəticəni əldə etmək və yaxşı mütəxəssis olmaq olar”.

*"Qəbul imtahanında suallar asan olsaydı, hamı ali məktəbə qəbul olardı"*

Sevinc hesab edir ki, qəbul imtahanlarının məzmunu ümumtəhsil məktəblərinin tədris proqramına tam uyğundur. Həmin proqramı sadəcə dərindən mənimsəmək lazımdır. Qəbul imtahanında sualların nisbətən çətin səviyyədə qoyulması normal haldır, çünki sualların hamısı asan olsaydı, hər kəs asanlıqla ali məktəbə qəbul olardı. Ona görə də fənlər üzrə mövzuları daha dərindən dərk etmək, onların dərinliklərini bilmək lazımdır.

*"Hansı ixtisasa qəbul olacağını abituriyent özü seçməlidir"*

Sevinc abituriyentlərin ixtisas seçiminə valideynlərin müdaxiləsinə də münasibət bildirdi. Abituriyentlərin bu məsələdə valideynlərin ağıllı, faydalı məsləhət və tövsiyələrinə ehtiyacı olduğunu söylədi. Bununla belə məcburiyyətin əleyhinə olduğunu vurğuladı. Abituriyent qəbul olacağı ixtisası özü seçməlidir: "Yalnız bu halda o, öz ixtisasını sevəcək və gələcəkdə həmin sahədə ürəkdən işləyəcək. Əksinə valideynlərinin məcburiyyəti olarsa, o, gələcəkdə ixtisasını sevərək işləməyəcək. Ona görə də abituriyentin seçdiyi ixtisas onun istəyi, həvəsi və marağına uyğun olmalıdır".

*Ailənin və müəllimlərin dəstəyi*

Qəbul imtahanlarına hazırlıq dövründə valideynlərinin ona hər bir şərait yaratdığından Sevinc məmnuniyyətlə söhbət açır. Ümumiyyətlə, bu mərhələdə abiuriyent istirahətə də vaxt ayırmalı, amma dərslərindən başqa digər məşğuliyyətlərə vaxt sərf etməməlidir. Valideynlər isə bu dövrdə ona hər bir şərait yaratmalıdırlar. Mənim valideynlərim hər bir anımda mənə yaxından köməklik göstərirdilər. Qəbula hazırlıq zamanı mənə müəllimlərimin də çox köməyi olub. Məhz onların köməyi və dəstəyi sayəsində mən bu balı toplaya bilmişəm".

*Qəbul imtahanlarının təşkili və məzmununa münasibət*

Sevinc qəbul imtahanlarının təşkili və məzmunu ilə bağlı bəzi fikirlərini də açıqlayaraq bildirdi ki, imtahanlar yüksək səviyyədə və tam şəffaf şəkildə keçirildi. İmtahanda hər qrup üzrə 5 fənnin olması normal haldır. Açıq tipli suallara münasibət bildirərkən Sevinc dedi ki, "bu sualların elə bir çətinliyi olmur və onlar səviyyəcə digər suallardan kəskin fərqlənmir. Sadəcə olaraq açıq sualların cavablandırılması daha çox vaxt aparır və daha çox diqqət tələb edir. Abituriyent belə suallar üzərində daha çox düşünməli olduğundan onların həllinə qapalı sualların cavablandırılmasına nisbətən daha çox vaxt ayırmalı olur. Buna görə də gələcəkdə açıq tipli sualların sayı artarsa, vaxtın da nisbətən uzadılması məqsədəuyğun olar".

*"Abituriyent gələcək ixtisasını sevərək seçməlidir"*

Sevinc gələcək abituriyentlərə məsləhət və tövsiyələrini də bildirdi. "Dərslərinə daha həvəslə yanaşsınlar, hər şeydən əvvəl, qarşılarına aydın məqsəd qoyub ixtisası sevərək seçsinlər. Düşünsünlər ki, bu ixtisasa qəbul olsalar, hansı uğurlara nail ola bilərlər. İmtahanlarda yüksək nəticələr əldə etmək üçün var gücləri ilə çalışsınlar, ali məktəbə qəbul olub valideynlərini, müəllimlərini və dostlarını sevindirsinlər".

***Bu gün Azərbaycan ailələrində kifayət qədər bacarıqlı və ağıllı gənclər yetişir. Amma bəzən valideynlərin imkansızlığı ucbatından təhsilini istənilən səviyyədə ala bilməyənlər, onu yarımçıq qoyanlar da olur. Haqqında danışacağımız gənc isə bütün çətinliklərə baxmayaraq, öz yoluna inadla davam edib, qarşısına qoyduğu məqsədə nail olanlardandır. O, II ixtisas qrupu üzrə ən yüksək – 690 ballıq nəticə ilə ali məktəbə daxil olan Kənan Səfərlidir.***



***Səfərli Kənan Sadiq oğlu 1996-cı ildə Göyçay rayonunun Mırtı kəndində anadan olub. 2003-cü ildə həmin kənddə 1-ci sinfə gedib. Sonra ailəsi ilə birlikdə Bakıya gəlib. Təhsilini paytaxtdakı 277 saylı məktəbdə davam etdirib. Əla qiymətlərlə oxuyub. Qafqaz Universitetinin Maliyyə ixtisasına qəbul olub.***

***Kənan bu uğuru balaca yataqxananın dar mətbəxində çalışmaqla əldə edib***

Kənanla söhbət zamanı onun danışmağı çox da sevməyən, sakit, bir az da utancaq olduğu sezildi. O, müsahibə zamanı, bir çox maraqlı məqamlara aydınlıq gətirdi. Bu qələbəni əldə edə bilmək üçün hansı şəraitdə və necə çalışdığını soruşduqda məlum oldu ki, onun bu uğuru çox çətinliklər hesabına başa gəlib. 2003-cü ildə atasının işi ilə əlaqədar Bakıya köçməli olan ailəsi o vaxtdan indiyədək Nizami rayonunda yataqxanada yaşayır. Yataqxana mənzilində yaşamaq onlar üçün çox çətindir. "Ailədə 4 uşağıq – 3 qardaş, 1 bacı. Məndən böyük qardaşlarımın heç biri ali təhsil almayıb. Onlar kənddə müəyyən qədər oxusalar da, Bakıya gələndən sonra bəzi çətinliklər üzündən təhsillərini davam etdirmədilər, atama kömək etdilər. Ailəmizdə yalnız atam işləyirdi. Ona görə də böyük qardaşlarım oxuya bilmədilər və ailəni dolandırmaq üçün atama kömək etməli oldular".

Kənan hazırlıq dövründə hər gün dərslərini hamı yatandan sonra yataqxananın mətbəxində hazırlamalı olub. Qadınların mətbəxdə işi olanda isə dərslərini küçəni işıqlandırmaq üçün istifadə olunan lampanın işığında, küçədə hazırlayıb. "Elə olurdu ki, gecəni yuxusuz başa vururdum. Dərs oxumaq üçün gecənin sakitliyi daha çox əl verirdi. Bir sözlə, gündüz şərait olmadığından, yataqxanadakı səs-küydən gecə vaxtı oxumaq məcburiyyətində qalırdım və adətən 4-5 saat çalışırdım. Əlbəttə, belə vəziyyətdə hazırlaşmaq çətin idi. Amma qarşıma qoyduğum məqsədə nail olmaq üçün bütün çətinliklərə qatlaşırdım. Çox şükür ki, sonda Tanrı mənim zəhmətimi bəhrəsiz qoymadı."

***"Sınaq imtahanlarında 600-dən yuxarı bal topladığım üçün qəbul imtahanında da yüksək bal toplayacağıma əmin idim."***

Qəbul imtahanı zamanı Kənan bütün sualları cavablandırsa da, iki cavabı səhv olub. Onun sözlərinə görə, tarix və ingilis dili fənlərinin hərəsində bir sualı düzgün cavablandırmayıb. "İngilis dilindən sual asan idi, ona görə burada səhv etdiyimə heyfslənirəm. Amma tarixdən olan sual çətin idi. Buna baxmayaraq, sınaq imtahanlarında 600-dən yüksək bal topladığım üçün qəbul imtahanında da yüksək nəticə əldə edəcəyimə inanırdım. İmtahanda 2 suala cavabım səhv olduğu üçün düşünürdüm ki, kimsə məndən daha yüksək nəticə əldə edəcək. II qrup üzrə ən yüksək nəticəni mənim göstərəcəyimi və birinci olacağımı gözləmirdim. Təbii ki, nəticələr açıqlananda və qrup üzrə birinci olduğumu biləndə hədsiz sevindim. Ona görə çox sevinirdim ki, atamın, anamın mənim üçün çəkdikləri əziyyət və öz zəhmətim hədər getməmişdi".

Kənan qeyd edir ki, qəbula hazırlıq dövründə valideynləri ona böyük dəstək olub.

Xüsusilə, atasının ondan daha çox gözləntisi olduğunu və hətta 700 bal toplayacağına ümidli olduğunu bildirir. Ona görə qəbul imtahanının nəticəsinə əsasən 690 bal topladığımı biləndə atam sevinsə də, maksimal nəticəyə olan ümidinin doğrulmadığını gizlətmədi. Amma sonra qrup üzrə birinci olduğumu biləndə hədsiz sevindi. Anam isə sevincindən ağladı.

O, hazırlıq zamanı vaxt bölgüsünə münasibətini bu cür ifadə edir: "Qəbul imtahanında yüksək bal toplamaq üçün bütün günü dərs oxumaq vacib deyil, vacib olan vaxtdan səmərəli istifadə etməkdir. Mən fənlər üzrə dərslər arasında dəqiq vaxt bölgüsü aparmırdım, onların hamısına məsuliyyətlə hazırlaşırdım. Amma riyaziyyat və coğrafiyanı çox sevdiyimdən onlara daha çox vaxt ayırırdım. Elə buna görədir ki, imtahanda hər ikisindən bütün suallara düzgün cavab yazdım. Mən əvvəldən özüm üçün müəyyən etmişdim ki, hansı fənnə nə qədər vaxt sərf etmək lazımdır".

***"Hazırlıq kursuna getmədən də ali məktəbə daxil ola bilərdim, amma bu qədər yüksək bal toplaya bilməzdim"***

O, qəbul imtahanına hazırlıq kursunda hazırlaşıb. Kursa getmədən də ali məktəbə daxil ola bilməyin mümkünlüyünü, amma bu qədər yüksək bal toplamağın çətin olduğunu bildirir. Ona görə də yüksək nəticə əldə etmək üçün əlavə olaraq hazırlıq kursuna getdiyini söyləyir.

Kənan qəbula hazırlıq prosesində TQDK-nın nəşr etdiyi test topluları və vəsaitlərin ona çox köməyi olduğunu, müəyyən məsələlərin izahının dərsliklərdə kifayət qədər geniş olmadığından onları əlavə vəsaitlərdən öyrəndiyini də vurğuladı.

***"İnsan qarşısına konkret məqsəd qoyarsa, istədiyinə nail ola bilər"***

Kənan hesab edir ki, insanın həyatda bacarmadığı şey yoxdur. O, qarşısına konkret məqsəd qoyarsa, istədiyinə nail ola bilər. Gələcək abituriyentlər bunu bilməli və özlərinə inanmalıdırlar. Hər bir şagird aşağı siniflərdən başlayaraq yaxşı oxumalı, yuxarı siniflərdə isə istəyini, məqsədini konkretləşdirməlidir. Qəbul imtahanında yüksək nəticə əldə etmək üçün çox çalışmalı, valideynlərinin, müəllimlərinin əziyyətini itirməməli, onların ümidlərini doğrultmalıdır.

Kənandan nə üçün Qafqaz Universitetini seçməsini də öyrəndik. O bildirdi ki, 9-cu sinifdə oxuduğu vaxtdan Qafqaz Universitetinə qəbul olmağa hazırlaşıb. "Bildiyimə görə, bu universitetdə təhsil mühiti yüksəkdir. Yaxşı oxuyan tələbələrə xaricdə təhsil almaq imkanı da yaradılır. Ona görə imtahan nəticələri elan olunandan sonra tərəddüd etmədən Qafqaz Universitetini seçdim.

Kənan gələcəkdə təhsilini Avropa ölkələrində, Kanadada davam etdirmək istəyir. Onun fikrincə, təhsilini xaricdə davam etdirmək tələbələrə əlavə imkanlar yaradır. O da xaricdə oxumaqla daha yüksək nailiyyətlər əldə etmək, ixtisasını yaxşı öyrənəndən sonra özünə layiqli karyera qurmaq istəyir.

O, qəbul kampaniyasında görmək istədiklərini də qeyd edir, imtahanda açıq tipli sualların sayının olduğu kimi qalmasını istəyir. Gələcəkdə abituriyentlərin cavab kartlarının elektronlaşdırılmasını təklif edir.

Sonda Kənan qəbula hazırlıq zamanı ona dəstək olan valideynlərinə, müəllimlərinə təşəkkürünü bildirdi.

***Müsahibələri apardı: Könül Cəfərova***



***İsmayılov Məhəmməd Şahin oğlu 1995-ci ildə Bakı şəhərində anadan olub. Nərimanov rayonu 258 saylı tam orta məktəbi qızıl medalla bitirib. III qrup üzrə qəbul imtahanında 700 bal toplayaraq Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının hüquqşünaslıq ixtisasına qəbul olub.***

***– 700 bal toplayacağını gözləyirdin?***

– Xeyr gözləmirdim, amma yüksək bal toplayacağıma əmin idim. İmtahandan sonra Space telekanalında yayımlanan “Abituriyent” verilişində düzgün cavablar elan olunanda gördüm ki, cavablarımın hamısı düzdür. Lakin cavab kartında kodlaşdırmada səhv edib-etmədiyimə bir qədər tərəddüdlə yanaşırdım. Cavablar elan olunandan sonra 700 bal topladığım məlum oldu.

***– Sevincini ilk dəfə kimlə bölüşdün?***

–Anamla. Uğuruma hədsiz sevindi. Sonra isə yaxınlarım, dostlarım, qohumlarım sevincimi bölüşüb məni təbrik etdilər.

***– TQDK-nın sınaq imtahanlarında topladığın ən yüksək bal neçə olurdu?***

– 10-cu sinifdə sınaq imtahanlarında 490-550 bal arası nəticə göstərirdim, 11-ci sinifdə isə topladığım ən yüksək bal 675 olub.

***– İmtahan zamanı cavabına tərəddüd etdiyin suallar vardımı?***

–Bir neçə belə test var idi. Onları həll edərkən ən çox düz hesab etdiyim cavabları seçdim və seçimimdə yanılmadım.

***– Dərslərinə gündə nə qədər vaxt ayırırdın?***

– Hər gün dərslərimə 3-4 saat vaxt ayırırdım. Amma axırıncı bir ayda, demək olar ki, bütün günü çalışırdım.

***– Dərslərdən əlavə hansısa məşğuliyyətin var idi?***

– Həftədə bir dəfə futbola gedir, hər gün idmanla məşğul olur, arabir dostlarımla gəzməyə çıxırdım. Məncə, bunlara da vaxt ayırmaq lazımdır.

***– Səni uğura aparan yolda həvəsdən düşdüyün vaxtlar olurdu?***

– Həvəsdən düşmək yox, yorğunluq olurdu. Xüsusilə axırıncı həftələrdə çox yorulurdum. Amma oxumaqdan bezmirdim. Tanıdığım abituriyentlər arasında elələri var idi ki, axırıncı bir ay ərzində az oxuyurdular. Ona görə də istədikləri nəticəni əldə edə bilmədilər. Düşünürəm ki, oxumaqdan bezmək olmaz, yorğunluğa baxmayaraq axırıncı günə kimi oxumaq lazımdır.

***– III qrupu seçmək öz istəyin idi, yoxsa valideynlərinin də təsiri olub?***

– Aşağı siniflərdə oxuyanda dəqiq elmlərə daha çox marağım var idi. Riyaziyyatı, fizikanı çox sevirdim. Lakin sonradan həm valideynlərimin məsləhəti ilə, həm də öz istəyimlə bu qrupu seçdim. Çünki uşaqlıqdan arzum hüquqşünas olmaqdır. Lakin digər fənlərdən qazandığım biliklərin hədər olduğunu düşünmürəm. Onlar da nə vaxtsa işə yaraya bilər.

***– Səncə, imtahandan bir gün əvvəl istirahət etmək lazımdır, yoxsa oxumaq?***

– Mən imtahandan bir gün əvvəl bir saata qədər dərs oxudum. Düzdür, həmin gün oxuduqlarımdan imtahana heç bir sual düşmədi, amma yenə də onları təkrarlamış oldum.

***– Şəraitin normal olmaması oxumamaq üçün səbəb ola bilərmi?***

– Məncə, istək və həvəs olan yerdə heç bir şey oxumağın qarşısını ala bilməz.

*– Bəzi abituriyentlər sualların çətin olmasından gileylənir. Bu barədə sən nə fikirləşirsən?*
–Ola bilər ki, suallar kimin üçünsə çətin olsun. Çünki bilmədiyi hər şey adama çətin gəlir. Əgər abituriyent bütün proqramı yaxşı mənimsəyibsə, suallar çətin olsa belə, bu, ümumi nəticəyə o qədər də təsir etməz.

*– Gələcək abituriyentlərə nə tövsiyə edərdin?*
– Məsləhət görərdim ki, heç vaxt ruhdan düşməsinlər, çox oxusunlar, qarşılarına konkret məqsəd qoysunlar və ona nail olmaq üçün səylə çalışsınlar, özlərinə inamlı olsunlar.

*– Ümumtəhsil məktəblərində tədrisin səviyyəsi səni qane edirmi?*
– Mən digər məktəblərin tədris səviyyəsi haqda konkret bir şey deyə bilmərəm. Amma oxuduğum 258 nömrəli məktəbdə təhsilin səviyyəsi qaneedicidir.

*– Repetitorla hazırlaşmısanmı, əgər hazırlaşmısansa, bu, hansı zərurətdən yaranıb: məktəbdə fənlərin tədrisinin qənaətbəxş olmamasından, yoxsa daha yaxşı hazırlaşmaq istəyindən?*
– Bəli, repetitorla hazırlaşmışam. 10-cu sinifdə III qrup üzrə bir neçə əsas fəndən, 11-ci sinifdə isə fənlərin hamısından hazırlığa getmişəm. Repetitorla məşğul olmaq daha yaxşı hazırlaşmaq istəyimdən irəli gəlib. Məktəbimizdə dərslər yaxşı keçilsə də, amma bu, qəbul proqramındakı bütün materialları tam, bütün dərinliyi ilə mənimsəmək üçün kifayət etmirdi. Bir də ki, öyrəndiklərini təkrarlamaq da lazımdır. Məktəbdəki 45 dəqiqəlik dərslə buna tam nail olmaq mümkün olmur. Ona görə mən də bir çox şagirdlər kimi əlavə olaraq repetitor yanına getməli olmuşam.

*– Qəbul imtahanlarına günün hansı vaxtlarında hazırlaşmaq daha əlverişlidir? Ümumiyyətlə, vaxt bölgüsünü necə müəyyənləşdirmişdin?*

– Abituriyent üçün vaxtdan səmərəli istifadə çox önəmlidir. Məncə, dərsləri çox gec və ya səhər tezdən, yuxulu halda hazırlamaq düzgün deyil. Yuxu rejimini düzgün qurmaq, ona uyğun hazırlaşmaq daha yaxşı nəticə verir. Mənim vaxt bölgüm belə idi: gün ərzində, əsasən, 4 saat oxuyur, eyni zamanda, əyləncəyə, idmana, dostlarla gəzintiyə də vaxt ayırırdım.

*– İxtisas seçərkən sənin üçün hansı meyarlar əsas olub?*
– Hüquqşünaslıq ixtisasının nüfuzu, müəyyən qədər valideynlərimin təsiri, ancaq ən əsası özümün bu ixtisasa olan marağım.

*– TQDK-nın nəşr etdiyi vəsaitlərin və test toplularının yüksək nəticə göstərməyində nə kimi rolu olub?*
– Yüksək uğura nail olmağımda məktəb dərslikləri ilə bərabər TQDK-nın nəşr etdiyi vəsaitlərin və test toplularının da böyük köməyi olub: həm test həll etməyi təkmilləşdirməkdə, həm də sualların ümumi məzmunu ilə tanış olmaqda onlardan çox faydalanmışam. Bundan əlavə, sınaq imtahanlarında iştirak etmək də çox yardımçım olub. Bu zaman vaxtı düzgün bölməyi, açıq tipli sualları həll etməyi öyrənmişəm.

*– İmtahanların test üsulu ilə keçirilməsinə münasibətin?*
– Test suallarının cavablarında konkretlik olur. Həm də cavablarına kənardan subyektiv müdaxilələr olmur. Bu da çox vacib amildir. Odur ki, məncə, test sistemi şagirdlərin bilik səviyyəsini ölçmək üçün ən obyektiv, ən mütərəqqi üsuldur.

– ***Gələcək abituriyentlərə tövsiyələrin.***

– Əzmkar, iradəli olsunlar. Dərslərini aşağı siniflərdən başlayaraq yaxşı oxusunlar. Yəni "11-ci sinifdə çox oxusam, kifayət edər", – deyə düşünməsinlər. Bu, çox yanlış fikirdir. Dərs oxumaqla bərabər, istirahətə də vaxt ayırsınlar. Testlərlə çox işləsinlər. Dərsləri bir dəfə oxumaqla kifayətlənməsinlər, hər cümləni diqqət edə-edə bir neçə dəfə oxusunlar. TQDK-nın təşkil etdiyi sınaq imtahanlarında mütəmadi iştirak edib öz hazırlıq səviyyələrini yoxlasınlar. İmtahan vaxtı həyəcanlanmasınlar. Hər yerdə, həmişə özlərinə, öz güclərinə inansınlar.

***Müsahibəni apardı: Ulduz Talıbova***



***Ali məktəblərə III ixtisas qrupu üzrə qəbul imtahanında 700 bal toplayan 4 abituriyentdən biri də Qafarova Flora Eldar qızıdır.***

***Flora 1996-cı ildə Sumqayıt şəhərində anadan olub. 2002-ci ildə Sumqayıt şəhər N.Gəncəvi adına texniki və təbiət elmləri liseyinin I sinfinə gedib. Məktəbdə yüksək qiymətlərlə oxuyub. Liseyin sayılıb-seçilən şagirdlərindən olub. Məktəb illərində fənn olimpiadalarında fəal iştirak edib, mükafatlara layiq görülüb. Bu il qəbul imtahanında rekord nəticə əldə edərək Qafqaz Universitetinin Tərcümə (ingilis dili) ixtisasına qəbul olub.***

***"Qəbul imtahanında 700 bal toplayacağıma əvvəldən inanırdım və buna da nail oldum"***

Flora qəbul imtahanına hazırlıq dövründən danışarkən qeyd edir ki, əsas məsələ məktəbdə dərslərə müntəzəm olaraq yaxşı hazırlaşmaqdır. Məktəb illərində dərsləri yaxşı oxumusansa, qəbula hazırlıq dövründə onları bir növ təkrarlamış olursan: "Bununla bərabər gərək özünə inamlı olasan, qarşına aydın, konkret məqsəd qoyasan. Mənim əvvəlcədən hədəfim 700 bal toplamaq olub və öz gücümə də inanmışam. Sınaqların çoxunda iştirak etmişəm və hər dəfə də 600-dən yuxarı bal toplamışam. Yaxınlarım, dostlarım soruşanda ki, bəs nə vaxt ən yüksək nəticə əldə edəcəksən? Mən cavab verirdim ki, yalnız 1 dəfə – qəbul imtahanında 700 bal toplayacağam. Belə bir nəticə əldə edəcəyimə əvvəldən inanırdım və buna da nail oldum".

O da digər yüksək ballılar kimi hesab edir ki, qəbul imtahanında yüksək nəticə göstərmək üçün əsas məsələ vaxtında, yəni məktəb illərində yaxşı oxumaqdır. Əgər vaxtında oxumadınsa, sonrakı dövrdə hazırlıq kifayət etmir. Hazırlıqda ardıcıllıq, sistemlilik, təkrarlamalar vacib şərtdir.

Flora bildirir ki, qəbul imtahanında həyəcanlanmadım. Bunun səbəbini belə izah edir: "Liseydə xeyli imtahan verdiyimdən onun ab-havasına bir növ alışmışdım. Digər tərəfdən, sınaq imtahanları məni qəbul imtahanına həm psixoloji cəhətdən alışdırmışdı, həm onun texnologiyasına bələd olmuşdum, həm də hazırlıq səviyyəmi yoxlamışdım. Nəticəmin yüksək olacağına əmin idim".

***"Hazırlıq zamanı hər bir abituriyent vaxtını öz bilik səviyyəsi və qavrama qabiliyyətinə görə bölməlidir"***

Flora bildirir ki, hər gün vaxtımın böyük bir hissəsini dərslərə hazırlığa sərf edirdim. Daha çox axşamlar oxuyurdum. Hazırlığın ilk aylarında oxumağa 6-7 saat vaxt ayırırdımsa, imtahanlara yaxın son 1 ayda 8-10 saat çalışırdım. Amma istirahətə də vaxt ayırırdım. Hesab edirəm ki, abituriyentin istirahət etmədən bütün günü dərs oxuması artıq yüklənmədir və bu, sağlamlığa zərər verə bilər. Odur ki, istirahəti, normal yuxunu da

unutmaq olmaz. Hazırlıq zamanı hər bir abituriyent vaxtını öz bilik səviyyəsi və qavrama qabiliyyətinə görə bölməlidir.

***"Əvvəl ingilis dili müəllimi olmaq istəyirdim, sonra bu fikrimdən daşınaraq tərcümə ixtisasına üstünlük verdim"***

Flora deyir ki, xarici dilləri, xüsusən də ingilis dilini öyrənməyə həmişə böyük marağım olub. 9-cu sinifdən sonra əvvəlcə ingilis dili müəllimliyinə həvəs göstərirdim, ancaq sonra fikrimi dəyişib tərcümə ixtisasına üstünlük verdim. Əslində, müəllimlik tərcüməçilikdən heç də asan peşə deyil. Ancaq tərcüməçilik müəllimlikdən daha çox fərdi yaradıcılıq tələb etdiyindən və bu da mənim naturama daha yaxın olduğundan mən ikincini seçdim. Valideynlərim də, qardaşım da bu seçimimi dəstəklədilər.

***"Tərcümə ixtisasına yiyələndikdən sonra ikinci ali təhsil alıb həkim olmaq istəyirəm"***

Flora tərcümə ixtisasına yiyələndikdən sonra ikinci ali peşə təhsili almaq istəyir. Özü də ikinci ixtisas kimi həkimliyə maraq göstərir. Həkim olmaq qərarına isə son bir ildə, yəni XI sinifdə gəlib. Amma bu arzusunun indi həyata keçməsinin artıq gec olduğunu başa düşüb. Bununla belə, ingilis dilini öyrənmək marağı heç də dəyişməyib. İngilis dilini peşəkar səviyyədə bilməyimin gələcəkdə bu dildə olan tibbi ədəbiyyatı öyrənməyə, lazım gələrsə, onları Azərbaycan dilinə tərcümə etməyə imkan verəcəyini düşünür.

***Floranın gələcəkdə xaricdə oxumaq planı yoxdur***

O, yüksək bal topladığı halda, dövlət ali məktəbini deyil, özəl ali məktəbi seçməsinə də aydınlıq gətirdi: "Əvvəldən Qafqaz Universitetində təhsil almaq istəyirdim. Topladığım baldan asılı olmayaraq bu universiteti seçəcəyimə qərar vermişdim. Hazırlıq müddətində bir neçə dəfə bu universitetdə tədbirlərdə olmuşdum və yaradılan təhsil mühitini, dərs sistemini çox bəyənmişdim".

Floranın gələcəkdə xaricdə oxumaq planı yoxdur. Düşünür ki, Qafqaz Universitetində alacağı təhsil qaneedici olacaq.

***Bilik öncülünün hobbisi futbol azarkeşliyidir***

Bilik öncülü əlavə məşğuliyyətindən, hobbisindən də danışdı. Qeyd etdi ki, şəkil çəkməyi, futbola baxmağı sevir: "7 il olar ki, futbola maraq göstərirəm. Ən çox sevdiyim komanda İngiltərənin "Mançester Yunayted" komandasıdır. Son bir ildə futbola baxmağa elə də çox imkanım olmayıb, amma yenə də maraqlı oyunlar olduğu zaman vaxt tapıb baxırdım. Azərbaycanın isə "Qarabağ" komandasına azarkeşlik edirəm.

***"Abituriyentin özünəinamı və dəqiq məqsədi olsa, istədiyinə nail ola bilər"***

Flora qeyd edir ki, yüksək nəticə əldə etmək üçün abituriyentin, hər şeydən öncə, özünəinamı və dəqiq məqsədi olmalıdır. Məqsəd aydınlığı şagirdin hazırlığını istiqamətləndirir.

O, yüksək nəticə əldə etməsində zəhməti olan bütün müəllimlərinə təşəkkürünü bildirir və qeyd edir ki, müəllimlərinin əməyi, dəstəyi olmasaydı, belə yüksək nəticə qazana bilməzdi. Son iki ildə hazırlıq kursundakı məşğələlərin də nəticəmdə xeyli rolu olub. Hazırlıq prosesində valideynlərimin mənə hər zaman dəstək olduqlarını heç zaman unuda bilmərəm.



***Murğuzova Nərminə Sahib qızı 1995-ci ildə Tovuz rayonunun Bozalqanlı kəndində anadan olub. Fəhlə ailəsində boya-başa çatıb. Təhsilini Bozalqanlı kənd tam orta məktəbində alıb. Hər zaman çalışqanlığı, zəhmətsevərliyi ilə seçilib. Məktəbi gümüş medalla bitirib. Ali məktəbə III ixtisas qrupu üzrə qəbul imtahanında 700 bal toplayaraq Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının hüquqşünaslıq ixtisasına qəbul olub.***

***Nərminə öz nəticəsi ilə kənd məktəblilərinin də yüksək bal toplamasının mümkün olduğunu təsdiq etdi.***

"Yüksək nəticəyə necə nail oldun" sualına Nərminə belə aydınlıq gətirir: "İndiyə qədər biz qəbul imtahanlarında şəhər məktəblərindən olan şagirdlərin yüksək bal toplamasına alışmışıq. Fikirləşirdim ki, niyə belə olmalıdır, axı biz eyni proqramla dərs keçirik, eyni dərsliklərdən istifadə edirik. Bu düşüncə məni belə qənaətə gətirdi ki, həmin stereotipi qırmaq və kənd məktəblilərinin də yüksək bal toplamağa qadir olduğunu sübut etmək lazımdır. Bu fikir mənim üçün güclü bir stimul oldu, konkret məqsədimə çevrildi. Özüm üçün dəqiq iş rejimi qurdum. Vaxtımın bir dəqiqəsini belə boş, mənasız işlərə sərf etmədim. Nəticədə məqsədimə ən yüksək balla nail oldum. Onu da deyim ki, bizim məktəbimizdə çox yaxşı təhsil mühiti mövcuddur. Məlumdur ki, əvvəllər kənd məktəbləri ilə şəhər məktəbləri arasında çox ciddi fərqlər var idi. Uşaqların təhsilə cəlb edilməsində də problemlərə rast gəlinirdi. Bir çox uşaqlar təhsildən uzaqlaşırdı, bəzən müəllimlərin peşəkarlıq səviyyəsi şəhər məktəblərindəkindən geri qalırdı. Son illər təhsil sistemimiz inkişaf etdiyindən belə ciddi fərqlər aradan qalxmaqdadır. İndi rayon məktəblərində də təhsilin səviyyəsi yüksəlir".

***İnsanların hüquqlarını qorumaq istəyi***

Nərmin nə üçün hüquqşünas olmaq istəyinə də aydınlıq gətirdi. Bildirdi ki, bir neçə il əvvəl yaxından tanıdığı bir insanın hüquqlarının pozulduğunun şahidi olub. Bu hadisə ona pis təsir edib. Bundan sonra hüquqşünas olmaq və insanların hüquqlarını qorumaq qərarına gəlib: "Bir çox tanışlar mənim bu istəyimə ağız büzüb, hüquqşünaslığın kişi sənəti olduğunu söyləsələr də, valideynlərim bu ixtisası seçməyimə dəstək oldular".

***"3 saat ərzində gələcək taleyim müəyyənləşdiyi üçün bütün həyəcanımı boğdum və istədiyim nəticəni əldə etdim"***

Nərminə deyir ki, sınaq imtahanlarında hər zaman 600 baldan yuxarı nəticə göstərirdim. Odur ki, imtahanda da yüksək bal toplayacağıma əmin idim. Əslində, yüksək hazırlıqlı abituriyentlər arasında rekord nəticə – 700 bal toplayanların sayı daha çox ola bilər. Ancaq onlar çox zaman imtahanda, necə deyərlər, həyəcanlarının qurbanı olur və maksimal nəticəni əldə edə bilmirlər. Mən də əvvəllər müəyyən qədər həyəcanlanırdım. Lakin sonra düşündüm ki, 3 saat ərzində gələcək taleyim müəyyənləşir, ona görə də bütün həyəcanımı boğdum və istədiyim nəticəni əldə etdim. İnsan həyəcanlanmayanda rahat düşünür və səhvlərə yol vermir.

***"İnsanın iradəsi güclü olsa və istədiyini əldə etməyə çalışsa, repetitor yanına getmədən də yüksək naticə əldə edə bilər"***

O, hesab edir ki, repetitor yanına getmədən də yüksək nəticə əldə etmək olar. Ancaq bunun üçün şagird həm müstəqil surətdə çalışmağı bacarmalı, həm də məktəbdə dərslərini yaxşı oxumalıdır. Xeyli şagird repetitor xidmətindən istifadə etmədən də 600-dən yuxarı bal toplamağın mümkün olduğunu sübut etmişdir. Nərminənin fikrincə insanın iradəsi güclü olsa və istədiyini əldə etməyə çalışsa, repetitorla məşğul olmadan da yüksək nəticə əldə edə bilər. Ancaq bir çox şagirdlər belə düşünür ki, repetitor xidmətindən istifadə etmədən yüksək bal toplamaq olmaz. Şəxsən mən repetitor yanına getmədən də yaxşı nəticə əldə edə bilərdim. Hətta bəzi fənlər üzrə dərslərə müstəqil şəkildə hazırlaşırdım. Amma valideynlərim təkid etdilər ki, repetitorla hazırlaşsam nəticələrim daha yüksək olar. Həqiqətən də bəzi fənlər üzrə repetitorla məşğul olmağın faydası oldu və bu, mənim yüksək bal toplamağıma kömək etdi.

***"Aydın məqsəd və hər şeyi əvvəlcədən planlama müvəffəqiyyəti təmin edir"***

O, qəbul imtahanında yüksək bal toplamasını 11 il ərzində yaxşı oxumasının nəticəsi hesab edir. Onun fikrincə, məktəbdə aşağı siniflərdə yaxşı oxumayan şagird son 2 il ərzində hazırlaşsa da, yüksək nəticə əldə edə bilməz. Hər bir abituriyent gərək əvvəlcədən qarşısına aydın məqsəd qoysun. Hazırlıq zamanı fənlər arasında müəyyən vaxt bölgüsü aparsın. Vaxtı düzgün bölmək, oxumağa da, istirahətə də vaxt ayırmaq, hər şeyi əvvəlcədən planlamaq müvəffəqiyyəti təmin edir.

***"Dərsliklər nə qədər mükəmməl olsa, uşaqların da aşağı siniflərdən başlayaraq hazırlaşması asanlaşar"***

Nərminə qəbul imtahanlarında görmək istədiyi yeniliklərdən danışarkən bir çox dərsliklərdəki materialların qəbul imtahanına yüksək səviyyədə hazırlaşmaq üçün yetərli olmadığını bildirir, dərsliklərin daha da təkmilləşdirilməsinin zəruriliyini qeyd edir. O, fikrini konkret misalla belə ifadə edir. "Məsələn, Azərbaycan dili fənni üzrə hazırlaşmağa dərslik materialı yetərli deyildi. Odur ki, mən Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının nəşr etdiyi vəsaitlərdən də istifadə edirdim. Dərsliklər nə qədər mükəmməl olsa, uşaqların aşağı siniflərdən başlayaraq hazırlaşması asanlaşar və repetitor yanına getmələrinə ehtiyac olmaz".

***Sevimli məşğuliyyəti bədii ədəbiyyat oxumaqdır***

Nərminədən dərsdən sonrakı məşğuliyyətlərini soruşanda, musiqi dinləməyi xoşladığını, idmanla da maraqlandığını bildirdi. Lakin ən sevimli məşğuliyyətinin bədii ədəbiyyat oxumaq olduğunu dedi. Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir və İlyas Əfəndiyevin yaradıcılığını daha çox xoşladığını söylədi. Onların əsərlərinin indi də aktual olduğunu, bu günün problemləri ilə səsləşdiyini vurğuladı.

***"Yaxşı oxuyan şagirdin ali məktəbə yolu hər zaman açıqdır"***

Sonda Nərminə imtahana hazırlıq dövründə ona dəstək olan hər kəsə – müəllimlərinə, qohumlarına və valideynlərinə təşəkkürünü bildirir: "Onlar mənə inanmasaydılar, bəlkə də bu nəticəni əldə edə bilməzdim. Gələcək abituriyentlərə qarşılarına yüksək məqsəd qoymağı, ona çata bilmək üçün var gücləri ilə çalışmağı məsləhət görürəm. Yüksək nəticə əldə etmək çətin iş deyil. Sadəcə, ciddi, sistemli oxumaq lazımdır. Yaxşı oxuyan şagirdin ali məktəbə yolu hər zaman açıqdır".

***Yaxşı oxumaq və təhsildə yüksək nəticələr əldə etmək nəsildən, kökdən də gələn bir ənənədir. Məmmədli Nərmin Rövşən qızı da öz çalışqanlığı və qazandığı uğurlarla bu fikri bir daha təsdiq edir. Nərmin ailəsinin qızıl medal ənənəsinin davamçısıdır. Onun babası və atası məktəbi qızıl medalla, nənəsi isə gümüş medalla bitirib. Nərmin də məktəbi qızıl medalla bitirərək ailələrinə 4-cü medalı gətirib. O, III ixtisas qrupu üzrə qəbul imtahanında da fərqlənərək 700 ballıq rekord nəticə ilə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının hüquqşünaslıq ixtisasına qəbul olub.***



***Nərmin Məmmədli Mingəçevir şəhər 3 saylı tam orta məktəbin məzunudur. Məktəbdə oxuduğu illərdə bütün fənlərdən əla qiymətlər alıb və hər zaman yüksək biliyi, bacarığı ilə fərqlənib. Təhsil müddətində rayon, şəhər və ölkə üzrə keçirilən fənn olimpiadalarında fəal iştirak edərək yüksək yerlər tutub.***

*"Yüksək nəticə göstərdim və istəyimə nail oldum"*

Məktəb illərindən Azərbaycan Respublikası Yanında Dövlət İdarəçilik Akademiyasının hüquqşünaslıq ixtisasına qəbul olmağı qarşısına məqsəd qoyub. Bunun üçün çox yüksək bal toplamağın lazım gəldiyini bilsə də, hazırlıq müddətində imtahana çox çətin sualların düşə biləcəyindən ehtiyatlansa da və istədiyi nəticəni əldə edə bilməyəcəyindən qorxsa da, amma inadından dönməyib. İmtahanda isə sualların asan olduğunu görəndə narahatlığı keçib və diqqətlə işləməyə başlayıb. Axşam nəticələrini yoxlayandan sonra sualların hamısına düzgün cavab verdiyini bilsə də, kodlaşdırmada nəsə səhv edəcəyindən ehtiyatlanıb. Ona görə də cavablar çıxana kimi 700 bal toplayacağına tam əmin olmayıb. Nəticələr bəlli olanda isə sevincinin həddi-hüdudu olmayıb.

Bilik öncülü qeyd edir ki, uşaqların təhsilə olan marağı ailədən də asılıdır. Təhsildə və qəbul imtahanına hazırlaşanda yaxınlarının sənə dəstək olduğunu gördükdə özünəinam hissin güclənir, oxumağa həvəsin artır. Amma istənilən halda oxumağa maraq daha çox hər bir şagirdin özündən asılı olur. Mən ailədə qızıl medalçıların ənənəsini davam etdirmək, onların davamçısı olmaq istəyirdim. Bir gənc qıza baş ucalığı gətirən qızıl medalı almaq mənim arzum idi. Bu gün mən çox məmnunam ki, həm məktəbdə, həm də qəbul imtahanında istədiyimə nail olmuşam.

*"Hər kəs öz rejimini özü müəyyən etməlidir"*

Nərmin belə hesab edir ki, yüksək nəticə göstərmək üçün nə qədər oxumaq hər kəsin qavrama səviyyəsindən asılıdır. Gecə saat 12-dən sonra dərs oxumaq məsləhət görülməsə də, mən hər zaman dərslərimi gecə hazırlayırdım. Qəribədir ki, gecə vaxtı dərs oxuyanda onları daha yaxşı qavrayırdım. Odur ki, hər kəs öz rejimini özü müəyyən etməlidir. Dərs oxuyanda çox diqqətli olmaq lazımdır, fikrin başqa yerdə olmamalıdır. Əgər mən qəbula hazırlığın əvvələrində dərs hazırlamağa 5-6 saat vaxt sərf edirdimsə, son aylarda bütün günü oxuyur, təkrarlara da vaxt ayırırdım.

*"Yüksək nəticə qazanmağım 11 illik yaxşı təhsilin bəhrəsidir"*

Söhbət zamanı o, maraqlı bir məqama toxunur: "Bəzi uşaqlar belə düşünürlər ki, onlar aşağı siniflərdə yaxşı oxumasalar da yuxarı siniflərdə hazırlığa getmək ali məktəbə qəbul olmaq üçün kifayət edər. Bu, yanlış fikirdir. Məktəbdə aşağı siniflərdən yaxşı oxumaq lazımdır. Çünki sən sonradan ya özün müstəqil şəkildə, ya da repetitorla 6-cı sinifdən 11-ci sinfə kimi keçilənləri təkrarlamağa məcbur olursan. Aşağı siniflərdə zəif oxuyan uşaq son 2 ildə hətta ciddi hazırlaşsa

da, çətin ki, yüksək nəticə əldə edə bilsin. Bir var son 2 il ərzində oxuduqlarını təkrarlayasan, bir də var ki, azı 6 ildə öyrənmədiklərini oxuyasan. Düşünürəm ki, şəxsən mənim yüksək nəticə qazanmağım 11 illik yaxşı təhsilin bəhrəsidir".

*"Ailəmiz mənim seçimimə hörmətlə yanaşdı"*

Baba və nənəsinin himayəsində böyüyən, ziyalı ailəsində tərbiyə alan Nərmin təhsilə həmişə böyük önəm verib. Babası onun həkim olmasını istəyib. Amma Nərmin öz seçimini edərək hüquqşünas olmaq qərarına gələndə babası onun seçiminə hörmətlə yanaşıb.

*"650 baldan yuxarı nəticə göstərən abituriyentlərdən bizim elə bir ciddi fərqimiz yoxdur"*

O, hesab edir ki, 700 ballıq nəticə göstərənlərin 650-dən yuxarı bal toplayan abituriyentlərdən elə bir ciddi fərqləri yoxdur: "Sadəcə, biz imtahanda daha diqqətli olmuş, bunun sayəsində nisbi üstünlük əldə etmişik və ola bilsin ki, müəyyən qədər də daha şanslı olmuşuq. Bəzən elə olur ki, adi diqqətsizliyə görə bir və ya bir neçə balı itirirsən. Heç şübhəsiz, burada psixoloji amillərin də rolu olur. Mənim tanıdığım bir çox uşaqlar imtahanda qorxu və həyəcandan istədikləri nəticəni əldə edə bilmədilər. Əslində isə onların savadı heç də zəif deyildi".

Nərmin yaşadığı Mingəçevir şəhərində, eləcə də oxuduğu məktəbdə təhsilin yüksək səviyyədə olduğunu, şagirdlər arasında əsl mənada bilik yarışının getdiyini, bu il Mingəçevirdə 18 nəfər şagirdin məktəbi qızıl medalla bitirdiyini, 39 məzunun isə qəbul imtahanlarında 600 baldan yuxarı nəticə göstərdiyini bildirdi.

*"Sınaq imtahanları qəbula hazırlıq səviyyəsinin ən etibarlı yoxlanmasıdır"*

"Yüksək nəticə əldə etmək üçün nələri etmək vacibdir" sualına Nərmin belə cavab verir: "Çox oxumaq, imtahanda diqqətli olmaq, özünü itirməmək, həyəcanlanmamaq, bütün sınaq imtahanlarında iştirak etmək. Sınaq imtahanları qəbula hazırlıq səviyyəsinin ən etibarlı yoxlanmasıdır. Sınaqlarda iştirak edən şagirdə qəbul imtahanı çətin gəlmir".

Nərmin qəbula həm dərsliklər, həm də TQDK-nın nəşrləri vasitəsilə hazırlaşdığını deyir. Ümumiyyətlə, Komissiyanın çap etdiyi test topluları və vəsaitlərdən istifadənin abituriyentlərin imtahana hazırlığında böyük rolu olduğunu vurğulayır.

Nərmin qəbul prosesinə aid bəzi mülahizələrini də dilə gətirdi. Vurğuladı ki, imtahanda ən vacib məsələlərdən biri cavab kartında düzgün kodlaşdırma aparmaqdır. Kodlaşdırmada buraxılan səhvlər nəticələrə mənfi təsir göstərir. Bəzən cavab kartının üstünə su düşməsi və ya ləkələnməsi hallarına da rast gəlinir ki, bunlar da təəssüf doğurmaya bilməz. Belə hallarda cavab kartını yenisi ilə əvəzləmək olmur. Ona görə də cavab kartlarının elektron versiyada olmasını istərdik. Ola bilsin ki, bu sistemin işlənib hazırlanması və bütün abituriyentləri əhatə etməsi hələlik mümkün deyil. Ancaq gələcəkdə buna diqqət ayırmaq lazımdır.

*"Həyatımın ən məsuliyyətli mərhələsi bundan sonra başlayır"*

"5 il sonra özünü harada və necə görürsən" sualıma cavabında Nərmin qeyd edir ki, hazırda yalnız təhsil alacağı akademiyada yaxşı oxumaq barədə düşünür. Ali məktəbi də fərqlənmə diplomu ilə bitirməyə çalışacağını deyir. Bunlar onun hazırkı istək və qayğılarıdır. Onu da qeyd edir ki, həyatının ən məsuliyyətli mərhələsi bundan sonra başlayır. O, təhsil aldığı akademiyanın yüksək adına layiq səviyyədə oxumağa çalışacağını bildirir.

Nərmin sonda belə bir maraqlı məqama da toxunur: "III ixtisas qrupu üzrə 700 bal toplayanlardan 3-ü Dövlət İdarəçilik Akademiyasını seçib. Onlarla elm-təhsil sahəsində rəqabət aparmaq maraqlı olacaq".



*Osman Müslümov 1996-cı ildə Bakı şəhərində anadan olub. 2002-ci ildə Bakı şəhər 98 saylı tam orta məktəbində 1-ci sinfə gedib, 2013-cü ildə həmin məktəbi bitirib. Məktəbdə bütün fənlərdən həmişə "əla" qiymət alıb. İstedadı, çalışqanlığı ilə seçilib. IV ixtisas qrupu üzrə 700 ballıq maksimal nəticə göstərən iki gəncdən biridir və Azərbaycan Tibb Universitetinin Müalicə işi ixtisasına dövlət sifarişi əsasında qəbul olub.*

***Yüksək bal toplamaq uğrunda hazırlıqlar***

"Yüksək nəticə əldə etməyinə təsir edən amillər hansılardır" sualına Osman qısa və konkret cavab verdi: "Məktəbdə yaxşı oxumağım, son 2 ildə isə dərslərə, xüsusilə də IV qrup üzrə fənlərə daha ciddi və məsuliyyətlə yanaşmağım".

Osman xüsusi vurğulayır ki, hazırlıq dövründə təkcə dərsliklərdən deyil, digər mənbələrdən də yararlanmaq lazımdır, xüsusilə də TQDK-nın ayrı-ayrı fənlər üzrə nəşr etdiyi vəsaitlərdən istifadə etmək çox vacibdir. Hər bir abituriyent sınaq imtahanlarında iştirak etməli, imtahanın texnologiyasına alışmalı, testlərlə işləməyi öyrənməlidir.

Osman bildirir ki, yüksək nəticə əldə etməyimə baxmayaraq, mən gün ərzində 3-4 saat dərs oxuyurdum, sadəcə qavrama qabiliyyətim yüksək olduğundan az vaxtda çox şey öyrənirdim. Testlər üzərində işləməyim də sürətli idi. Gələcək abituriyentlərə də məsləhət görərdim ki, testlər üzərində sürətlə işləməyi öyrənsinlər.

***"İnsanın hansısa istəyinə çatması üçün şans da müəyyən qədər rol oynayır"***

Osmanın fikrincə, insanın hansısa məqsədinə çatması üçün şans da müəyyən qədər rol oynayır. Ola bilər ki, yüksək ballılar arasında bilik səviyyəsi etibarilə məndən də hazırlıqlı uşaqlar var. Məsələn, mənim tanışlarımdan sınaq imtahanlarında məndən daha yüksək nəticə əldə edənlər var idi (mənim sınaqlardakı nəticələrim 650 baldan yuxarı olurdu). Amma qəbul imtahanında onlar məndən aşağı bal topladılar. Bəlkə də, burada şansdan çox, psixoloji hazırlığın rolu var. Onu deyim ki, mən istər imtahanda, istərsə də imtahandan kənar məqamlarda həmişə psixoloji cəhətdən hazır olmuşam.

Osman niyə məhz IV qrupu seçdiyinə də aydınlıq gətirir: "Məndə bu ixtisası seçmək həvəsini həkim qohumlarım yaradıb. Bundan əlavə, özümün də IV qrupun fənlərinə böyük marağım olub. Əvvəllər I qrupa meyil göstərsəm də, sonra fikrimi dəyişərək IV qrupu seçmişəm.

O, söhbət zamanı gələcək planlarından da danışaraq qeyd etdi ki, hələlik Azərbaycan Tibb Universitetində təhsil almaq istəyirəm. Ancaq imkan olarsa, sonrakı illərdə təhsilimi xaricdə davam etdirmək istərdim. Eşitdiyimə görə, xaricdə tibbi praktika daha güclüdür. Ona görə də seçdiyim peşənin sirlərini burda öyrəndikdən sonra daha geniş təcrübə əldə etmək üçün xaricə – Türkiyəyə və ya Almaniyaya getmək niyyətindəyəm.

***"Abituriyent öz üzərində ciddi işləsə, yüksək nəticə əldə edə bilər"***

Osman onu da qeyd etdi ki, uğurlu nəticə əldə etmək üçün nə hədsiz dərəcədə tələsmək, nə də ləngimək fayda vermir. Yalnız bilik bazası yüksək olan və öz üzərində ciddi işləyən abituriyent yüksək nəticə əldə edə bilər. Mən qəbul imtahanı zamanı bütün sualları 1 saat 15 dəqiqəyə cavablandırıb bitirdim, lakin qalan müddətdə sual kitabçasında qeyd etdiyim cavabları yenidən yoxlayaraq səhvlərimi tapıb düzəliş etdim.

Qəbula hazırlıq dövründən danışarkən ilk vaxtlarda oxumağa gün ərzində az vaxt ayırdığını deyir. Qəbul imtahanları yaxınlaşdıqca yorğun olduğuna baxmayaraq, hazırlığa daha çox vaxt ayırdığını, son 2 ayda isə var gücü ilə çalışdığını vurğulayır.

Osman bildirir ki, sınaq imtahanlarında yüksək nəticə göstərdiyim üçün qəbul imtahanında da yüksək bal toplayacağıma inanırdım. Qəbul imtahanında, demək olar ki, həyacanlanmadım. Bunun əsas səbəblərindən biri də bütün sınaq imtahanlarında iştirak etməyim olub.

***"Seçdiyi ixtisas qrupu üzrə 2 maksimal bal toplayan abituriyentdən biri olmaq insanda qürur hissi doğurur"***

"Yüksək nəticə əldə etmək insana hansı hissləri yaşadır" sualına Osman belə cavab verir: "IV qrup üzrə qəbul imtahanında iştirak edən minlərlə abituriyent arasında fərqlənərək, iki maksimal bal toplayan abituriyentdən biri olmaq, əlbəttə, məndə qürur hissi doğurur. Bu nəticəni əldə etməyimdə isə, ilk növbədə, valideynlərimə, məktəb və hazırlıq müəllimlərimə borcluyam."

***"Ali məktəblərə qəbul imtahanı ümumtəhsil məktəb proqramını tam əhatə edir"***

Bilik öncülü qeyd etdi ki, TQDK-nın keçirdiyi qəbul imtahanlarının məzmunu məktəb dərsliklərini və proqramlarını tam əhatə edir. Bununla belə, qəbul imtahanında sualların cavablandırılması üçün müəyyən qədər məntiqi düşüncə də tələb olunur. Bu isə abituriyentin hazırlıq səviyyəsindən çox asılıdır.

***"Ali məktəblərə qəbul imtahanında repetitorsuz yüksək nəticə əldə etmək mümkündür, amma bir qədər çətindir"***

Təhsilin keyfiyyəti yüksək olan ümumtəhsil məktəblərində və ya liseylərdə oxuyan şagirdlər qəbul imtahanında repetitorsuz da yüksək nəticə əldə edə bilərlər. Məsələn, mən Xətai rayonundakı 98 saylı məktəbdə təhsil almışam. Burada təhsilin keyfiyyəti yaxşı idi. Düşünürəm ki, məktəbdə qazandığım biliklə hansısa ali məktəbə qəbul ola bilərdim. Amma qarşıma yüksək bal toplamağı məqsəd qoyduğuma görə məktəb dərsləri ilə bərabər repetitor yanına getməli oldum.

***Gələcək abituriyentlərə tövsiyə və arzular...***

Osman söhbət zamanı gələcək abituriyentlərə, xüsusən də qəbul imtahanında yüksək nəticə əldə etmək istəyən abituriyentlərə bəzi tövsiyələrini də bildirdi: "Aşağı siniflərdən, həmçinin qəbula hazırlığın ilk aylarından başlayaraq dərslərini yaxşı oxusunlar. Mümkün qədər istirahətə də vaxt ayırsınlar. İmtahanda həyəcanlanmasınlar. Qarşılarına qoyduqları məqsədə nail olmaq üçün sistemli çalışsınlar".

Osman dedi ki, fürsət düşmüşkən yüksək nəticə əldə etməyimdə mənə köməklik göstərən valideynlərimə, məktəb və hazırlıq müəllimlərimə təşəkkürümü bildirirəm. Mənim nəticələrim həm də müəllimlərimin nəticələridir. Arzu edirəm ki, müəllimlərimizin belə uğurlu nəticələr qazanan yetirmələrinin sayı çox olsun.

Bilik öncülü imtahanın məzmunu ilə bağlı bir istəyini bildirdi: "Qəbul imtahanında tətbiq olunan açıq tipli testlərin həlli xeyli vaxt apardığından gələcəkdə belə sualların sayı artırılarsa, imtahan vaxtı da artırılsın. Belə olarsa, uğurlu nəticələr əldə edənlərin sayı xeyli artar. Bir istəyim də odur ki, imtahanda məntiqi sualların sayı artırılsın. Bu, şagirdlərin analitik, yaradıcı təfəkkürünün inkişafını stimullaşdırar".



***Paşazadə Aytən Vaqif qızı 1996-cı ildə Mingəçevir şəhərində ziyalı ailəsində anadan olub. Mingəçevir şəhər 7 saylı tam orta məktəbi bitirib. Oxuduğu müddətdə dərs əlaçısı olub, məktəbin ictimai həyatında yaxından iştirak edib, nümunəvi davranışı ilə fərqlənib. Bu il IV ixtisas qrupu üzrə qəbul imtahanında 700 bal toplayaraq Azərbaycan Tibb Universitetinin Müalicə işi ixtisasına qəbul olub.***

***"Əsas istəyim Prezident təqaüdü almaq idi, bunun üçün də var gücümlə oxuyurdum"***

Müsahibə zamanı Aytən bildirdi ki, sınaq imtahanlarında həmişə 670-680 baldan yuxarı nəticə əldə etdiyinə görə qəbul imtahanında da yüksək bal toplayacağına əmin olub. "Mənim əsas istəyim Prezident təqaüdü almaq idi, bunun üçün də var gücümlə oxuyurdum. Ancaq rekord nəticə əldə edəcəyimi gözləmirdim. İmtahanda suallarla tanış olanda onlar mənə asan gəldi və məndə 700 bal toplayacağıma ümid yarandı. İmtahandan sonra sual kitabçasında qeyd etdiyim cavabları yoxlayaraq onların hamısının düzgün olduğunu gördüm. İmtahan nəticələrinin rəsmi açıqlanması maksimal bal topladığımı təsdiq etdi".

***"Məktəbdə yaxşı oxumaq abituriyentin qəbula hazırlığı üçün etibarlı bünövrə yaradır"***

Aytən qəbula hazırlıqda aşağı siniflərdən başlayaraq məktəb dərslərini yaxşı oxumağın daha önəmli olduğunu vurğuladı. Bununla belə qəbulda yüksək nəticə əldə etmək üçün əlavə məşğələlərə getməyə də ehtiyac olur. Yaxşı repetitor və ya hazırlıq kursunun təcrübəli müəllimi abituriyentə bu yə ya digər fənn üzrə proqramın hansı məsələlərinə daha çox diqqət yetirməyi, nələri öyrənməyi, necə öyrənməyi, düzgün istiqamət seçməyi daha yaxşı izah edir.

Aytən qeyd etdi ki, son 2 ilin hazırlıq məşğələləri ona diqqətli olmağı, testlərlə çox işləməyi və dərsləri təkrarlamaq metodikasını öyrədib. Bunlar isə imtahanda yüksək nəticə əldə etmək üçün çox vacibdir.

***"Vaxt bölgüm 3 hissədən – məktəb dərsləri, qəbul imtahanına hazırlıq məşğələləri və istirahətdən ibarət idi"***

Aytən özünün qəbula hazırlıq təcrübəsindən danışarkən burada nəsə qeyri-adi cəhətlər olmadığını vurğulayır. "Sadəcə hazırlıq dövründə daha diqqətli olmuşam, testlərlə çox işləmişəm, dərsləri təkrarlamağa xüsusi diqqət yetirmişəm. Vaxt bölgüm 3 hissədən – məktəb dərsləri, qəbul imtahanına hazırlıq məşğələləri və istirahətdən ibarət idi. İmtahana hazırlıq məşğələlərinə axşam saat 10-dan 12-yə kimi vaxt ayırır, səhər saat 6-da oyanıb oxuduqlarımı təkrarlayırdım. Bu da oxuduqlarımın yadımda yaxşı qalmasına kömək edirdi. Qavrama qabiliyyətim iti olduğundan dərsləri 1-2 dəfə oxumaq mənə kifayət edirdi. Bu məsələdə şagirdlər bir-birindən fərqlənir. Elə şagird var ki, bir mövzunu 3-4 dəfə oxusa da, yadında qalmır. Təbii ki, belə məktəbli dərsə daha çox vaxt ayırmalıdır. Ümumiyyətlə, hər bir şagirdin dərsə hazırlığında fərqli cəhətlər ola bilər.

Aytən hazırlıq dövründə əlavə heç bir işlə məşğul olmadığını, amma normal yuxuya, istirahətə həmişə vaxt ayırdığını da vurğulayır.

***"Qəbul imtahanına hazırlaşmaq üçün yalnız dərsliklər kifayət etmir, əlavə vəsaitlərdən də istifadə etmək lazım gəlir"***

Aytən bildirdi ki, hazırlıq dövründə TQDK-nın nəşr etdiyi vəsaitlərdən, test toplularından, "Abituriyent" jurnalındakı metodiki materiallardan da istifadə edib. Çünki qəbula yaxşı hazırlaşmaq üçün məktəb dərslikləri yetərli deyildi, əlavə vəsaitlərdən də istifadə etmək

lazım gəlirdi. Sınaq imtahanlarının, demək olar, hamısında iştirak etmişəm. Özü də mənə elə gəlir ki, sınaq imtahanları qəbul imtahanlarına nisbətən çətin idi. Bu, əlbəttə, yaxşı haldır – bir növ abituriyentlərin xeyrinədir.

***Hər iki valideyni həkim olan Aytən onların yolunu davam etdirəcək***

İxtisas seçimi məsələsinə gəlincə, Aytən vurğuladı ki, həkim olan hər iki valideyni onu da gələcəkdə həkim görmək istədiklərini bildiriblər. Ancaq onun özünün də əvvəldən bu peşəyə böyük marağı olub. "Gələcəkdə yüksək ixtisaslı cərrah olmaq istəyirəm. Bu sahənin yaxşı mütəxəssisi olacağıma inanıram. Azərbaycan Tibb Universitetini bitirdikdən sonra və ya axırıncı kurslarda təhsilimi xaricdə davam etdirmək istərdim. Daha çox Türkiyə və ya Böyük Britaniya universitetlərinin birində təhsil almaq niyyətindəyəm. Bunun üçün ixtisasımdan əlavə ən azından 2 xarici dili mükəmməl öyrənməyi qərara almışam".

***"Mingəçevirdən 2 nəfər abituriyentin 700 bal toplaması bizim şəhərdə təhsilin yaxşı səviyyədə olmasından xəbər verir"***

Aytən boya-başa çatdığı Mingəçevir şəhərində təhsilin yaxşı səviyyədə olduğunu bildirir. Şəhərimizdən 2 nəfər abituriyentin 700 bal toplaması burada təhsilin yaxşı səviyyədə olduğunu təsdiq edir. Mənim oxuduğum məktəbdə də tədris yüksək səviyyədədir və şagirdlərin yaxşı oxuması üçün hər cür lazımi şərait yaradılıb.

***"Hazırlıq dövründə valideynlərimin, müəllimlərimin mənə dəstəyi yüksək olub"***

Aytən hazırlıq dövründə valideynlərinin ona böyük dəstək verdiyini vurğulayır. Mənə "oxu" sözünü heç vaxt deməsələr də, məni hər cəhətdən qayğı ilə əhatə etmişdilər. Bəzən məndə inamsızlıq, yorğunluq halları olurdu. Amma onlar hər zaman mənə ruh verir, "narahat olma, yüksək bal toplayacaqsan" deyərək məndə özünəinam yaradırdılar. Məktəbin də, müəllimlərimin də dəstəyi güclü idi. Hamı mənim yüksək nəticə əldə edəcəyimə inanırdı. Nəticələr bilinəndə məni hamı –valideynlərim, müəllimlərim və yoldaşlarım təbrik etdi.

***"İmtahanda hər bir açıq tipli test sualını həll etməyə 5 dəqiqə vaxt ayrılmalıdır"***

Aytən qəbul imtahanında görmək istədiyi yeniliklərdən də bəhs edir. "Belə hesab edirəm ki, gələcəkdə imtahanlarda açıq tipli sualların sayı artırılarsa, ayrılan vaxt da artırılmalıdır. Açıq tipli testlərin cavablandırılması daha çox vaxt apardığından onların hər birinin həlli üçün imtahanda 5 dəqiqə vaxt ayrılmalıdır".

***"Abituriyentlər gecə yuxusuz qalmasınlar, istirahətlərinə, qidalanmalarına fikir versinlər, sistemli şəkildə oxusunlar"***

Bilik öncülü gələcək abituriyentlərə bəzi məsləhətlərini bildirdi: "Dərslərini gündüzlər oxusunlar, gecə yuxusuz qalmasınlar, istirahətlərinə, qidalanmalarına fikir versinlər, sistemli şəkildə oxusunlar. Gündəlik məşğələlərini, nələri nə vaxt, neçə saat oxuyacaqlarını əvvəlcədən planlaşdırsınlar. Vaxtlarını imtahan fənlərinin əhəmiyyətlilik dərəcəsinə və öz hazırlıq səviyyələrinə görə bölsünlər".

Söhbətin sonunda Aytən qəbul imtahanlarına hazırlıq mərhələsində ona dəstək olmuş valideynlərinə, qardaşına və müəllimlərinə təşəkkürünü bildirdi. Onların inamını, etimadını bundan sonra da doğruldacağını vurğuladı.

*Müsahibələri apardı: Könül Cəfərova*

# YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR

# I QRUP



### QAFARLI SEVİNC SAKİT QIZI

695 balla Bakı Ali Neft Məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 244 saylı tam orta məktəbin məzunudur.



### MƏLİKLİ HÜSEYİN ƏBÜLFƏZ OĞLU

692 balla "Qafqaz" Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Şirvan şəhəri Bakı Özəl türk liseyi Şirvan filialının məzunudur.



### AĞAKİŞİYEV MURAD ARZU OĞLU

690 balla Bakı Ali Neft Məktəbinin «Proseslərin avtomatlaşdırılması mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Bakı Özəl türk liseyinin məzunudur.



### CƏBRAYILOV MƏMMƏD MİSİR OĞLU

690 balla Bakı Ali Neft Məktəbinin «Proseslərin avtomatlaşdırılması mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Neftçi Qurban adına 288 saylı tam orta məktəbin məzunudur.



### ŞƏRİFOV İBRAHİM ARAZ OĞLU

690 balla Bakı Ali Neft Məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 3 saylı tam orta məktəbin məzunudur.



### ALLAHVERDİYEV MAHMUD ŞAHİN OĞLU

690 balla "Qafqaz" Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Zaqatala rayonu 1 saylı şəhər tam orta məktəbinin məzunudur.



### QƏDİRZADƏ SƏRXAN SOLTAN OĞLU

687 balla Azərbaycan Diplomatik Akademiyasının «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı Türk liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) məzunudur.



### ABASOVA NƏRMİN İLQAR QIZI

687 balla "Qafqaz" Universitetinin «Fizika müəllimliyi» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyanın məzunudur.



### SADIQLI LƏMAN ELŞƏN QIZI

687 balla Bakı Ali Neft Məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı Avropa liseyinin məzunudur.



### UMUDOVA TAMİLLA ETİBAR QIZI

685 balla İnformasiya Texnologiyaları Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı şəhəri 269 saylı tam orta məktəbin məzunudur.



## HƏSƏNOV ELGÜN ELŞƏN OĞLU

685 balla "Qafqaz" Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 221 saylı tam orta məktəbin məzunudur.



## MƏMMƏDOV FƏRİD ƏLİ OĞLU

685 balla Bakı Ali Neft Məktəbinin «Proseslərin avtomatlaşdırılması mühəndisliyi» ixtisasına qəbul olub.
Mingəçevir şəhəri Bakı Özəl türk liseyi Mingəçevir filialının məzunudur.



## MUSAYEV ŞƏMSİ SƏYYAD OĞLU

685 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 43 saylı məktəb-lisey kompleksinin məzunudur.



## KAZIMLI MİRƏŞRƏF SAMİR OĞLU

685 balla "Qafqaz" Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Lənkəran rayonu Bakı Özəl türk liseyi Lənkəran filialının məzunudur.



## SADIQLI ARİF MOBİL OĞLU

685 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 291 saylı «Araz» ekologiya liseyinin məzunudur.



## HÜSEYNOV RÜFƏT QƏHRƏMAN OĞLU

685 balla "Qafqaz" Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Gəncə şəhəri 26 saylı məktəb-lisey kompleksinin məzunudur.



## ƏLƏKPƏROV ƏLİŞİRAM VİDADİ OĞLU

684 balla "Qafqaz" Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 226 saylı tam orta məktəbin məzunudur.



## TALIBOV QARAXAN TALIB OĞLU

682 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı Türk liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) məzunudur.



## MİKAYILOV ELŞƏN RÖVŞƏN OĞLU

682 balla Bakı Ali Neft Məktəbinin «Proseslərin avtomatlaşdırılması mühəndisliyi» ixtisasına qəbul olub.
Göyçay rayonu Qızılağac kənd tam orta məktəbinin məzunudur.



## RƏFİYEV YƏHYA RASİM OĞLU

682 balla Bakı Ali Neft Məktəbinin «Proseslərin avtomatlaşdırılması mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Akademik Z.Əliyeva adına liseyin məzunudur.



## ƏLƏSGƏROVA SƏİDƏ ALƏDDİN QIZI

680 balla Bakı Ali Neft Məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Salyan rayonu 2 saylı şəhər tam orta məktəbinin məzunudur.



## VƏLİŞOVA GÜNEL NAZİM QIZI

680 balla "Qafqaz" Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 2 saylı texniki və humanitar elmlər liseyinin məzunudur.

# I QRUP



## RƏHİMLİ RƏHİM NOVRUZ OĞLU

680 balla Bakı Ali Neft Məktəbinin «Proseslərin avtomatlaşdırılması mühəndisliyi» ixtisasına qəbul olub. Bakı şəhəri Akademik Z.Əliyeva adına liseyin məzunudur.



## QULİYEV QULU BEHBUD OĞLU

680 balla Bakı Ali Neft Məktəbinin «Proseslərin avtomatlaşdırılması mühəndisliyi» ixtisasına qəbul olub. Bakı şəhəri S.Bəhlulzadə adına Xarici dillər təmayüllü gimnaziyanın məzunudur.



## ƏLƏKBƏROV AQİL RAMAZAN OĞLU

679 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
İsmayıllı rayonu Təzəkənd kənd tam orta məktəbinin məzunudur.



## RZAYEVA LEYLA ELXAN QIZI

677 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri İ.Əfəndiyev adına «Elitar» gimnaziyanın məzunudur.



## NƏZƏRƏLİYEV RƏŞAD RAUF OĞLU

677 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Abşeron rayonu Xırdalan şəhər 5 saylı tam orta məktəbin məzunudur.



## HƏBİBBƏYLİ TUNCAY HƏBİB OĞLU

677 balla İnformasiya Texnologiyaları Universitetinin «İnformasiya təhlükəsizliyi» ixtisasına qəbul olub.
Naxçıvan MR Şərur rayonu Şərur türk liseyinin məzunudur.



## RZAYEV KAMRAN RZA OĞLU

675 balla Bakı Ali Neft Məktəbinin «Proseslərin avtomatlaşdırılması mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 187 saylı tam orta məktəbin məzunudur.



## MƏMMƏDOVA LALƏ ELDAR QIZI

675 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Texniki humanitar liseyin məzunudur.



## SALMANOVA MÜNƏVVƏR RAFAEL QIZI

675 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Gəncə şəhəri K.D.Uşinski adına 29 saylı şəhər tam orta məktəbin məzunudur.



## İSMAYILOV ELVİN ŞAİQ OĞLU

675 balla Bakı Ali Neft Məktəbinin «Proseslərin avtomatlaşdırılması mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 213 saylı məktəb-liseyin məzunudur.



## MEHTİYEVA KÜBRƏ SRƏFİL QIZI

675 balla Gəncə Dövlət Universitetinin «Riyaziyyat və informatika müəllimliyi» ixtisasına qəbul olub.
Samux rayonu Zazalı kənd tam orta məktəbinin məzunudur.



## MƏMMƏDZADƏ GÜLDANƏ SƏDİ QIZI

675 balla Bakı Dövlət Universitetinin «Riyaziyyat» ixtisasına qəbul olub.
Bakı şəhəri 30 saylı tam orta məktəbin məzunudur.



**QULUZADƏ TELLƏR RƏŞİD QIZI**

675 balla "Qafqaz" Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Naxçıvan MR Culfa rayonu Kırna kənd tam orta məktəbinin məzunudur.



**ABBASLI NƏRMİN QABİL QIZI**

675 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Azərbaycan Respublikası Təhsil Nazirliyi, Heydər Əliyev adına liseyin məzunudur.



**SEYİDLİ RAFAEL SÜLEYMAN OĞLU**

672 balla Bakı Ali Neft Məktəbinin «Proseslərin avtomatlaşdırılması mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 264 saylı məktəb-liseyin məzunudur.



**QƏDİMOV FƏRHAD FƏRMAN OĞLU**

672 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyanın məzunudur.



**ƏLİZADƏ KƏNAN MƏHƏMMƏD OĞLU**

672 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Naxçıvan MR Şərur rayonu Şərur türk liseyinin məzunudur.



**HƏSƏNOV MURAD XƏQANİ OĞLU**

670 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Gəncə şəhəri M.Mehdizadə adına 4 saylı şəhər tam orta məktəbinin məzunudur.



**ZAHİDLİ NİZAM BEHBUD OĞLU**

670 balla Bakı Ali Neft Məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
İmişli rayonu Q.Babaşov adına Qaravəlli kənd tam orta məktəbinin məzunudur.



**RÜSTƏMOVA ÜLVİYYƏ ELDAR QIZI**

670 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Gəncə şəhəri M.Mehdizadə adına 4 saylı şəhər tam orta məktəbinin məzunudur.



**SƏİDZADƏ ASİMAN HƏBİBULLAH OĞLU**

670 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 21 saylı tam orta məktəbin məzunudur.



**HÜSEYNOV İFTİXAR EHTİYAC OĞLU**

670 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı Özəl türk liseyinin Ağdaş filialının məzunudur.



**MƏMMƏDOV ELXAN ELŞƏN OĞLU**

668 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Akademik Z.Əliyeva adına liseyin məzunudur.



**QULUZADƏ ÜLVİ YALÇIN OĞLU**

667 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bərdə rayonu 8 saylı şəhər tam orta məktəbinin məzunudur.



### ƏHMƏDOV CAMAL ELNUR OĞLU

667 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı Türk liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) məzunudur.



### SÜLEYMANOVA ARZU MÜRSƏL QIZI

667 balla "Qafqaz" Universitetinin «Riyaziyyat və informatika müəllimliyi» ixtisasına qəbul olub.
Lənkəran rayonu 10 saylı şəhər tam orta məktəbinin məzunudur.



### ƏLİYEV VAQİF MİKAYIL OĞLU

667 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyanın məzunudur.



### YAHYA MÜŞFİQ MEHMAN OĞLU

665 balla "Qafqaz" Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Şamaxı rayonu Şamaxı Avropa liseyinin məzunudur.



### CAVADLI İLKİN ARZUMAN OĞLU

665 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 28 saylı tam orta məktəbin məzunudur.



### ABBASOV HÜSEYN MAARİF OĞLU

665 balla Bakı Ali Neft Məktəbinin Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasına qəbul olub.
Gəncə şəhəri M.Ş.Vazeh adına 16 saylı şəhər tam orta məktəbinin məzunudur.



### ABDULLAYEV RÜFƏT ELÇİN OĞLU

665 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 12 saylı tam orta məktəbin məzunudur.



### QƏNBƏRLİ ŞAHİN ELÇİN OĞLU

665 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Naxçıvan MR Şərur rayonu Şərur türk liseyinin məzunudur.



### ƏMRAHOV EMİL İLQAR OĞLU

664 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 10 saylı tam orta məktəbin məzunudur.



### KƏRİMOV KƏRİM BƏYLƏR OĞLU

662 balla Bakı Ali Neft Məktəbinin Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasına qəbul olub.
Bakı şəhəri 145 saylı tam orta məktəbin məzunudur.



### VƏLİYEV MƏHƏMMƏD SEYFULLAH OĞLU

662 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Texniki humanitar liseyin məzunudur.



### ABBASOVA LEYLİ OKTAY QIZI

662 balla Bakı Ali Neft Məktəbinin Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasına qəbul olub.
Bakı şəhəri 81 saylı tam orta məktəbin məzunudur.



## AĞASİYEV ÇİNGİZ RASİM OĞLU

662 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyanın məzunudur.



## XƏLİLZADƏ NƏRGİZ AZƏR QIZI

662 balla Bakı Ali Neft Məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Gəncə şəhəri K.D.Uşinski adına 29 saylı şəhər tam orta məktəbinin məzunudur.



## CÜMŞÜDOV ƏBÜLFƏZ CAVİD OĞLU

662 balla "Qafqaz" Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Gəncə şəhəri Gəncə Azərbaycan-Türkiyə özəl liseyinin məzunudur.



## 322130 ƏLİYEV VƏLİ FİRUDDİN OĞLU

662 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 270 saylı tam orta məktəbin məzunudur.



## ƏBDÜLƏZİMOV RÜFƏT CEYHUN OĞLU

661 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 160 saylı klassik gimnaziyanın məzunudur.



## ƏHMƏDLİ AYDIN İLHAM OĞLU

660 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Azərbaycan Respublikası Təhsil Nazirliyi, Heydər Əliyev adına liseyin məzunudur.



## MƏLİKZADƏ ZÜMRÜD İMRAN QIZI

660 balla Gəncə Dövlət Universitetinin «Riyaziyyat və informatika müəllimliyi» ixtisasına qəbul olub.
Gəncə şəhəri M.Ş.Vazeh adına 16 saylı şəhər tam orta məktəbinin məzunudur.



## ÖMƏROV AZƏR BİNNƏT OĞLU

660 balla Bakı Ali Neft Məktəbinin Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasına qəbul olub.
Bakı şəhəri 74 saylı tam orta məktəbin məzunudur.



## RƏSULZADƏ AZƏR FİZULİ OĞLU

660 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Akademik Z.Əliyeva adına liseyin məzunudur.



## QURBANOVA ŞAMAMA HAQVERDİ QIZI

659 balla Bakı Ali Neft Məktəbinin Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasına qəbul olub.
Göygöl rayonu S.Vurğun adına 3 saylı şəhər tam orta məktəbinin məzunudur.



## MƏMMƏDOV ORXAN ELŞƏN OĞLU

659 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Akademik Z.Əliyeva adına liseyin məzunudur.



## İSMİYEVA GÜNAY ELMAN QIZI

659 balla Bakı Ali Neft Məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 244 saylı tam orta məktəbin məzunudur.



## FEYZULLAYEV PAŞA CANBULAT OĞLU

659 balla “Qafqaz” Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 299 saylı tam orta məktəbin məzunudur.



## ÖMƏROV ŞAMİL FƏRMAN OĞLU

657 balla Bakı Ali Neft Məktəbinin «Proseslərin avtomatlaşdırılması mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Texniki humanitar liseyin məzunudur.



## İSRAFİLOVA RUQİYYƏ ELXAN QIZI

657 balla Bakı Ali Neft Məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Astara rayonu Z.Əhmədzadə adına Pensər kənd 2 saylı tam orta məktəbin məzunudur.



## HÜSEYNLİ ŞƏBNƏM YUNİS QIZI

655 balla Azərbaycan Diplomatik Akademiyasının «İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri «Qafqaz» Azərbaycan-Türkiyə özəl gimnaziyasının məzunudur.



## EYVAZLI ƏDALƏT HİKMƏT OĞLU

654 balla Azərbaycan Dövlət Neft Akademiyasının Neft-qaz mühəndisliyi ixtisasına qəbul olub.
Bakı şəhəri E.İsmayılov adına 253 saylı tam orta məktəbin məzunudur.



## AĞAYEVA FAİDƏ FARİZ QIZI

653 balla Bakı Dövlət Universitetinin «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı şəhəri 286 saylı tam orta məktəbin məzunudur.



## NƏBİZADƏ ORXAN NAHİD OĞLU

658 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Cəlilabad rayonu 8 saylı şəhər tam orta məktəbinin məzunudur.



## ƏLİYEVA İNCİ AZƏR QIZI

657 balla Bakı Ali Neft Məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Naxçıvan MR Ordubad rayonu Şəhid Əliqulu Babayev adına Cənnəb kənd tam orta məktəbinin məzunudur.



## MƏMMƏDOVA EMİLYA SABİR QIZI

657 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 229 saylı tam orta məktəbin məzunudur.



## YUNİSLİ SAMİR FƏRMAN OĞLU

655 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Mingəçevir şəhəri N.Nərimanov adına 1 saylı şəhər tam orta məktəbinin məzunudur.



## NURUYEV TƏBRİZ NƏSİMİ OĞLU

654 balla Azərbaycan Diplomatik Akademiyasının «İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı Türk liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) məzunudur.



## ALLAHVERDİYEVA NİGAR ZAHİD QIZI

652 balla Bakı Ali Neft Məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 160 saylı klassik gimnaziyanın məzunudur.



**İBRAHİMOV FƏRİD ZAKİR OĞLU**

652 balla “Qafqaz” Universitetinin «Mexanika mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı Özəl türk liseyinin Quba filialının məzunudur.



**ŞÜKÜROV RAMİL RAMİZ OĞLU**

652 balla Bakı Ali Neft Məktəbinin «Proseslərin avtomatlaşdırılması mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 240 saylı tam orta məktəbin məzunudur.



**ABDULLAZADƏ EMİN EHTİRAM OĞLU**

652 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri Sumqayıt Özəl türk liseyinin məzunudur.



**ƏLİYEV YUSİF HƏSƏNAĞA OĞLU**

652 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı Özəl türk liseyinin Quba filialının məzunudur.



**HƏSƏNLİ ELVİN FƏRƏHİM OĞLU**

652 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Şəki rayonu Baş Zəyzid kənd tam orta məktəbinin məzunudur.



**ƏSƏDOVA AYDAN RAMİZ QIZI**

651 balla Bakı Ali Neft Məktəbinin «Proseslərin avtomatlaşdırılması mühəndisliyi» ixtisasına qəbul olub.
Naxçıvan MR Şərur rayonu Samil Əliyev adına Dəmirçi kənd 2 saylı tam orta məktəbinin məzunudur.



**ƏLİYEVA GÜLSÜM NƏBİ QIZI**

651 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 109 saylı tam orta məktəbin məzunudur.



**DOLXANOVA NƏZRİN İMAMVERDİ QIZI**

651 balla Bakı Ali Neft Məktəbinin «Proseslərin avtomatlaşdırılması mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 291 saylı «Araz» ekologiya liseyinin məzunudur.



**ALLAHVERDİYEV ƏLİ İSBƏNDİYAR OĞLU**

650 balla “Qafqaz” Universitetinin «Mexanika mühəndisliyi» ixtisasına qəbul olub.
Naxçıvan şəhəri Naxçıvan türk liseyinin məzunudur.



**HƏSƏNOV NƏSİR RƏFAİL OĞLU**

650 balla “Qafqaz” Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Naxçıvan MR Şərur rayonu Şərur türk liseyinin məzunudur.



**CƏBİYEVA GÜLƏNDAM RƏHMAN QIZI**

650 balla Bakı Ali Neft Məktəbinin «Proseslərin avtomatlaşdırılması mühəndisliyi» ixtisasına qəbul olub.
Abşeron rayonu Xırdalan şəhər B.Cəfərov adına 3 saylı tam orta məktəbinin məzunudur.



**ƏLİZADƏ ÇİÇƏK SƏTTAR QIZI**

649 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının «Kompyuter elmləri» ixtisasına qəbul olub.
Bakı şəhəri 250 saylı tam orta məktəbin məzunudur.



## ƏLİYEVA MEHRİBAN KAMAL QIZI

649 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 47 saylı tam orta məktəbin məzunudur.



## BƏKİROVA SEVDA OSMAN QIZI

649 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Mingəçevir şəhəri İ.Qayıbov adına 10 saylı şəhər tam orta məktəbinin məzunudur.



## ORUCOVA ZƏRİFƏ QƏŞƏM QIZI

648 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 47 saylı tam orta məktəbin məzunudur.



## ƏLİKİŞİYEV ƏLİ FAİQ OĞLU

647 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 278 saylı tam orta məktəbin məzunudur.



## HƏŞİMLİ EMİN İMAN OĞLU

647 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Abşeron rayonu Ə.Vahid adına Masazır kənd 1 saylı tam orta məktəbin məzunudur.



## ƏKBƏRLİ ZƏRƏFŞAN RASİM QIZI

647 balla Bakı Ali Neft Məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 15 saylı tam orta məktəbin məzunudur.



## RAFİQZADƏ ƏSGİNAZ RAMİL QIZI

649 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bərdə rayonu E.Məmmədov adına Samux kənd tam orta məktəbinin məzunudur.



## ƏHMƏDZADƏ NİYAZ SƏNAN OĞLU

649 balla Bakı Ali Neft Məktəbinin «Neft-qaz mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin məzunudur.



## ƏLİYEV TƏRLAN RAMİZ OĞLU

647 balla Bakı Ali Neft Məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri E.Eyyubov adına 273 saylı tam orta məktəbin məzunudur.



## HƏSƏNLİ RƏŞAD ŞÜKÜR OĞLU

647 balla "Qafqaz" Universitetinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Naxçıvan MR Şərur rayonu Şərur türk liseyinin məzunudur.



## CƏBRAYILLI RUSLAN RƏHİM OĞLU

647 balla Bakı Ali Neft Məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 104 saylı tam orta məktəbin məzunudur.



## AĞALAROV MİRSƏLİM SƏMİD OĞLU

647 balla Bakı Ali Neft Məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri Bakı Özəl türk liseyinin məzunudur.



**BAYRAMOVA XƏYALƏ VAHİD QIZI**

645 balla Bakı Ali Neft Məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Bakı şəhəri 47 saylı tam orta məktəbin məzunudur.



**TAHİROV HÜSEYN ŞAMXAL OĞLU**

645 balla "Qafqaz" Universitetinin «Kompyuter mühəndisliyi» ixtisasına qəbul olub.
Naxçıvan MR Şərur rayonu Şərur türk liseyinin məzunudur.



**MƏMMƏDZADƏ ZAUR AZAD OĞLU**

645 balla Bakı Ali Neft Məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
Qəbələ rayonu Xırxatala kənd tam orta məktəbinin məzunudur.



**İSMAYILOV MURAD FİKRƏT OĞLU**

645 balla Bakı Ali Neft Məktəbinin «Kimya mühəndisliyi» ixtisasına qəbul olub.
İsmayıllı rayonu 1 saylı şəhər tam orta məktəbinin məzunudur.



Demək olar ki, eyni mənzərə **"Qəbul imtahanlarının gedişində neqativ hallarla rastlaşdınızmı?"** sualını cavablandırmada da müşahidə olunub. Böyük əksəriyyət (980 nəfər – 93,06%) imtahanların gedişində neqativ hallarla rastlaşmadığını bildirmişdir. İmtahanda neqativ halla rastlaşdığını bildirənlər də olmuşdur (53 nəfər – 5,03%). Lakin burada da, bəzi abituriyentlər öz mövqelərində ardıcıl olmamış, ziddiyyətli cavablar vermiş və yaxud neqativ halın nədən ibarət olduğunu dəqiq və konkret göstərməmiş, cavablarını faktlarla əsaslandırmamışlar, üstəlik də bu hal imtahan nəzarətçilərinə verilən qiymətlərdə adekvat əksini tapmamışdır. Respondentlərdən 20 nəfər (1,89%) suala cavab verməmişdir.

Yuxarıda şərh edilən son iki sual **("Qəbul imtahanında yaradılan şərait sizi qane etdimi?", "Qəbul imtahanlarının gedişində neqativ hallarla rastlaşdınızmı?")** və növbəti **"İmtahan zalında nəzarətçilər imtahanı necə idarə edirdilər?"** sualları məqsəd baxımından əlaqəlidirlər. Abituriyentlərin bir qismi bu əlaqələrə fikir verməmiş və onların mövqelərindəki qeyri-ardıcıllıq və ziddiyyətli məqamlar da elə buradan irəli gəlmişdir. **"İmtahan zalında nəzarətçilər imtahanı necə idarə edirdilər?"** sualına həmin abituriyentlərin verdiyi qiymətləndirmə cavabları da bu deyilənləri təsdiqləyir. Belə ki, rəyi soruşulan 1053 nəfərdən yalnız 22-si (2,08%) nəzarətçilərin işini mənfi qiymətləndirmiş, 13 nəfər (1,23%) suala cavab verməmişdir. Deməli, faktiki olaraq 1053 nəfərdən 1018-i (96,67%) imtahan nəzarətçilərinin işinə müsbət qiymət vermişdir. Qiymətlərdən 704-ü (69,13%) "əla", 271-i (26,62%) "yaxşı", 43-ü (4,22%) "kafi" olmuşdur. Nəzarətçilərin işinə mənfi qiymət verənlərin qiymətləndirmə prinsiplərində də ziddiyyətli cəhətlər özünü göstərir. Məsələn, eyni abituriyentlər tərəfindən nəzarətçiyə irad tutulur, imtahanın gedişində neqativ hal olduğu qeyd edilir, amma qiymətləndirmədə ona "kafi", hətta "yaxşı" qiymət verilir. Yaxud da şəraitin qənaətbəxş olduğunu, neqativ hallarla rastlaşmadığını, nəzarətçilərə heç bir əsaslı iradları olmadığını bildirən bir neçə abituriyent nəzarətçilərə aşağı qiymət vermişdir. Bu mənada, verilən ən aşağı qiymətlərin meyarını müəyyənləşdirmək və izah etmək çətinlik yaradır.

**"İmtahana düşən sualların məzmunu barədə nə deyə bilərsiniz?"** sorğusuna 1003 nəfər ( 95,25 %) müsbət cavab verərək sualların proqram materiallarını əhatə etdiyini qeyd etmişdir. Qalan 50 nəfərin ( 4,74 %) 46-sı (4,36%) sualların proqramı əhatə etmədiyini bildirmiş, 4 nəfər (0,37 %) isə sualı cavabsız qoymuşdur.

Sorğuda abituriyentlərin **açıq tipli test tapşırıqlarına münasibəti də** öyrənilmişdir. Onların 269 nəfəri (25,54%) açıq tipli test tapşırıqlarına müsbət münasibət bildirmişdir. Fikirlərini belə əsaslandırmışlar ki, bu tipli testlər abituriyentlərin təfəkkürünü, düşüncə və mühakimə qabiliyyətini inkişaf etdirir, onları əzbərçilikdən uzaqlaşdırır, gənclərin biliklərini daha dəqiq və düzgün qiymətləndirməyə imkan verir. Bu fikirdə olan abituriyentlər açıq tipli test tapşırıqlarının digər fənlər üzrə də test blokuna salınmasını məqbul saymışlar, lakin onlardan bəziləri cavablarına onu da əlavə etmişlər ki, bu halda imtahanın vaxtının uzadılması məqsədəuyğun olar. Abituriyentlərdən 650 nəfər (61,72%) açıq tipli testlərin digər fənlər üzrə test blokuna salınmamasını qeyd etmişdir. Onlar bunun səbəbini, əsasən, vaxt amili ilə əlaqələndirmiş və bildirmişlər ki, açıq tipli testlərin həlli xeyli vaxt itkisinə səbəb olur. Onların fikrincə, açıq tipli testlər digər fənlər üzrə test blokuna da daxil edilərsə, onda imtahana ayrılan müddət də müvafiq şəkildə nəzərə alınmalıdır. Göründüyü kimi, hər iki halda başlıca amil

olaraq vaxt amili önə çəkilir və abituriyentlər bütövlükdə açıq tipli testlərin digər fənlər üzrə test blokuna salınmasının əleyhinə olmadığını ifadə edirlər. "Digər cavab" bəndini seçənlər 111 nəfər (10,54%) olmuşdur. Lakin onların, demək olar ki, heç biri öz mövqe və münasibətini əsaslandırmamışdır. 23 nəfər (2,18%) abituriyent bu sualı cavablandırmaqdan imtina etmişdir.

**"İmtahan suallarının çətinlik dərəcəsi barədə fikriniz"** sualına abituriyentlərdən 690 nəfər (65,52%) sualların çətin olmadığını, 164 nəfər (15,57%) çətin olduğunu bildirmişdir. Sualların çətinlik dərəcəsinin artırılması və azaldılmasına müasibət belə olmuşdur: 76 nəfər (7,21%) sualların çətinlik dərəcəsinin artırılmasını, 120 nəfər (11,39 %) azaldılmasını təklif etmişdir. 3 nəfər ( 0,28%) isə sualı cavablandırmamışdır.

**"İmtahan vaxtı barədə nə deyə bilərsiniz?"** sualına da cavablar maraqlı olmuşdur. Abituriyentlərin 855 nəfəri ( 81,19%) hesab edir ki, qəbul imtahanına ayrılan vaxt kifayət qədər idi. 39 nəfər (3,70%) abituriyent imtahanda test tapşırıqlarını cavablandırmaq üçün ayrılan vaxtın çox olduğunu, 156 nəfər ( 14,81%) az olduğunu bildirmişdir. 3 nəfər (0,28 %) isə suala cavab verməkdən imtina etmişdir. Abituriyentlər imtahan suallarının sayı barədə də rəylərini bildirmişlər. Sorğuda iştirak edən 1053 nəfərin 1019-u (96,77%) sualların sayının kifayət qədər olduğunu, cəmi 19 nəfər (1,80%) çox olduğunu, 11 nəfər isə (1,04 %) az olduğunu qeyd etmişdir. 4 nəfər ( 0,37 %) suala cavab verməmişdir.

**Anket sorğusunda yüksək nəticəli gənclərə qəbul imtahanına hazırlıqla bağlı öz iş təcrübələri barədə fikirlərini, gələcək abituriyentlərə məsləhət və tövsiyələrini bildirməyə də imkan yaradılmışdır. Aşağıda bununla bağlı cavablardan daha çox diqqət çəkən nümunələri təqdim edirik.**

## Bilik yarışı öncüllərinin gələcək abituriyentlərə məsləhət və tövsiyələri

***Qədirzadə Sərxan (I qrup, 687 bal)*** - Məsləhət görürəm ki, aşağı siniflərdən başlayaraq yalnız seçəcəkləri ixtisas qrupunun fənlərini yox, digər fənləri də yaxşı oxusunlar, çünki gələcəkdə peşə seçimində bəzən tərəddüdlər ola bilər. Bu baxımdan bütün fənləri yaxşı oxumaq lazımdır ki, ixtisas qrupunu dəyişəndə çətinlik yaranmasın. Digər fənləri öyrənmək həm də bilik dairəsi və dünyagörüşünün genişliyi üçün lazımdır.

***Həsənov Elgün (I qrup, 685 bal)*** - Qəbul imtahanına əzmlə hazırlaşmaq, sınaq imtahanlarında iştirak etməklə bilik səviyyəni müntəzəm olaraq yoxlamaq, zərərli vərdişlərdən uzaq olmaq, yuxu və qida rejiminə də riayət etmək lazımdır.

***Hüseynov Rüfət (I qrup, 685 bal)*** - Çox çalışmaq, çox zəhmət çəkmək lazımdır. Tənbəllikdən, oxumağa mane olan cürbəcür bəhanələrdən uzaq olmaq, bilik səviyyəni proqramın tələblərinə uyğun dərinləşdirmək gərəkdir.

***Talıbov Qaraxan (I qrup, 682 bal)*** - Qəbul imtahanında yaxşı nəticə göstərmək üçün abituriyentdə, ilk növbədə özünəinam, məsuliyyət və tələbkarlıq olmalıdır. Sistemli oxumaq, oxuduqlarını mütəmadi təkrar etmək, onların yaxşı yadda qalması ücün təhlil və müqayisələr aparmaq lazımdır.

***Mikayılov Elşən (I qrup, 682 bal)*** - Dərsliklər ən etibarlı mənbədir. Onlarla çox işləmək lazımdır. Hazırlıq prosesində öz rejimini düzgün qurmaq gərəkdir. Buraya oxuma, çalışma rejimi, yuxu və istirahət üçün vaxt bölgüsü və s. daxildir.

***Abbaslı Nərmin (I qrup, 675 bal)*** - Mən öz təcrübəmdən cıxış edib əminliklə deyirəm ki, həvəsi, məqsədi və potensialı olan abituriyent istədiyi nəticəni əldə edə bilər.

***Həsənov Murad (I qrup, 670 bal)*** - Hər bir şagird dərslərinə aşağı siniflərdən ciddi yanaşmalıdır. Qəbula hazırlıq zamanı bacardıqca çoxlu sayda testlərlə işləmək, diqqəti yayındıran məşğuliyyətlərdən uzaq olmaq lazımdır. Dərslərə yüksək əhval-ruhiyyə, istək və həvəslə yanaşmaq gərəkdir. Tələbə adını daşımağın necə şərəfli, qürurlu və gözəl bir hiss olduğunu sözlə ifadə etmək çətindir. Bu hisləri yaşamaq üçün hər bir əziyyəti çəkməyə dəyər!

***Vəliyev Məhəmməd (I qrup, 662 bal)*** - TQDK-nın təşkil etdiyi bütün sınaq imtahanlarında iştirak etməyi və bu imtahanlarda yol verdikləri səhvləri aradan qaldırmaq üçün ciddi çalışmağı məsləhət görürəm.

***Rəsulzadə Azər (I qrup, 660 bal)*** - Əsas fikrinizi dərslərə, oxumağa yönəldin. Sosial şəbəkələrdən mümkün qədər uzaq olun, çünki bunlar insanın qızıl kimi vaxtını alır.

***Ömərov Şamil (I qrup, 657 bal)*** - Qəbula hazırlıq dövründə yuxu və qidalanma rejiminə də diqqət yetirmək vacibdir. Sosial şəbəkələrdən uzaq olmaq, imtahanlara məqsədyönlü, sistemli şəkildə hazırlaşmaq lazımdır.

***Hüseynli Şəbnəm (I qrup, 655 bal)*** - Hər bir abituriyent öz bilik səviyyəsinə, bacarıq və qabiliyyətinə uyğun ixtisas seçməlidir. Eyni zamanda ixtisas seçimində gələcəyi nəzərə almaq lazımdır. Arzu, istəklə yanaşı, seçdiyin ixtisasın perspektivini, gələcəkdə nə dərəcədə lazımlı olmasını da düşünmək lazımdır.

***Əliyev Yusif (I qrup, 652 bal***) - Sınaq imtahanlarında mütəmadi iştirak edin, "Cavab kartı"nın doldurulması texnologiyası ilə bağlı təcrübə əldə edin. Testlərlə çoxlu işləyin, imtahanda sualların şərtinə diqqət yetirin, mümkün qədər ötən illərin sınaq və qəbul imtahanlarında istifadə olunmuş test nümunələri ilə tanış olun.

***Əhmədzadə Niyaz (I qrup, 649 bal)*** - Məsləhət görürəm ki, hər hansı fənnin hansısa bir bölməsini oxuyarkən bir neçə vəsaitdən istifadə edin. Çünki bir vəsaitdə olan mövzu digərində olmaya və ya daha dolğun, geniş əks oluna bilər.

***Tağıyev Şamxan (I qrup, 642 bal)*** - Qəbul imtahanının nəticəsində mənim gəldiyim qənaət budur ki, yaxşı nəticə əldə etmək üçün planlı və sistemli şəkildə oxumaq lazımdır. Gələcək abituriyentlərə də mənim əsas məsləhətim budur.

***İmanova Bağçagül (I qrup, 634 bal)*** - Birincisi, yüksək bal toplamaq üçün intensiv çalışmaq lazımdır. Digər tərəfdən, fənlər üzrə hazırlıq üçün vaxtı düzgün bölmək gərəkdir. Bununla bərabər, əyləncə, istirahət, ictimai işlərə də vaxt ayırmağı məsləhət görürəm.

***Dostuyev Təbriz (I qrup, 622 bal)*** - Məktəb proqramı üzrə materiallara mükəmməl yiyələnməyi, TQDK-nın keçirdiyi sınaq imtahanlarında iştirak etməyi və "Abituriyent" jurnalının bütün saylarını oxumağı məsləhət görürəm.

*Həmzəyeva Nuranə (I qrup, 606 bal)* - Qəbul imtahanı zamanı ayrılan vaxtı düzgün bölsünlər, ondan səmərəli istifadə etsinlər, imtahanda dəqiq bilmədikləri sualları cavablandırmasınlar.

*Abbasova Fidan (I qrup, 604 bal)* - Abituriyentlərə çox çalışmağı, oxuduqlarını dərindən mənimsəməyi, testlərlə çox işləməyi, mütəmadi olaraq sınaq imtahanlarında iştirak etməyi tövsiyə edirəm.

*Qarayev Altay (I qrup, 602 bal)* - Təhsil almaq, oxumaqla bağlı heç zaman daha "gecdi",- deyə düşünməyin. Əzmlə, məqsədyönlü şəkildə çalışsanız, hətta 1 il ərzində hazırlaşmaqla da müvəfəqiyyət qazana bilərsiniz.

*Səfərli Kənan (II qrup, 690 bal)* - Hər bir şagird bilməlidir ki, oxumaqla, təhsil almaqla öz gələcəyini qurur. Mən belə düşündüm, çalışdım və istədiyimə nail oldum. Abituriyent qəbul imtahanına hazırlığa belə bir əzm və inamla başlamalıdır.

*Bədəlova Aytəkin (II qrup, 675 bal)* - Məsləhətim odur ki, oxuduqlarını dərk etsinlər, dərindən mənimsəsinlər. Testlərlə çox işləsinlər, imtahanda maksimum dərəcədə diqqətli olsunlar.

*Fərəczadə Simuzər (II qrup, 665 bal)* - İxtisas qrupu seçiminə ciddi yanaşsınlar. Sevdikləri ixtisası seçsinlər. Elə olsun ki, gələcəkdə bu ixtisası seçdiklərinə peşman olmasınlar.

*Əliyeva Aygün (II qrup, 652 bal)* - Qəbula hazırlıq prosesində mənim əsas prinsiplərim bunlar idi: məqsədyönlülük, diqqətlilik, səbir, vaxtın düzgün bölgüsü.

*Fərzəliyev Voraşil (II qrup, 649 bal)* - Yüksək bal toplamağı qarşısına məqsəd qoyan abituriyent nəzərə almalıdır ki, dərsliklərdə, tədris vəsaitlərində xırda, əhəmiyyətsiz hec bir şey yoxdur. Onlardakı hər bir detala diqqət yetirmək, əhəmiyyət vermək lazımdır.

*İsmayılov Əliş (II qrup, 642 bal)* - Qəbula hazırlıq dövründə ilk öncə vaxtınızı düzgün bölməyə çalışın və bu zaman səviyyənizi nəzərə alın. Öz gücünüzə inanın. Özünü zəif hesab edən abituriyent belə düzgün vaxt bölgüsü ilə çox böyük nəticələr əldə edə bilər. İstirahət etmədən saatlarla oxuyub özünüzü yormayın, dincəlmə intervallarını müəyyən edin. Yuxusuzluğa qətiyyən yol verməyin, ən azı 6 saat yatmağa çalışın. Dərsi oxuyarkən özünüzə həm də müəllimin gözü ilə baxın. Ayrı-ayrı mövzular üzrə test suallarını hazırlayıb bir dəftərə köçürün. Mən bu qayda ilə 365 test hazırlamışdım.

*Xurşudzadə Fatimə (II qrup, 635 bal)* - Məktəb proqramını tam mənimsəyin. Bu, sizə nəinki qəbul imtahanında, gələcəkdə də lazım olacaq. Sınaq imtahanlarında mütəmadi iştirak edin. Məntiqi təfəkkürünüzü inkişaf etdirin.

*Feyziyev Arif (II qrup, 632 bal)* - Oxuduğunuz materialları müəyyən metodiki qaydalara əsasən mənimsəyin, bilikləri əzbərçilik yolu ilə deyil, dərk etməklə öyrənin, onları yoldaşlarınız və müəllimlərinizlə təhlil və müzakirə edin.

*Abdulrahmanov Nurlan (II qrup, 629 bal)* - Məktəb dərslikləri və TQDK-nın metodiki nəşrlərindən istifadə etməklə yanaşı, digər vəsaitlərdən də istifadə edin. Testlərlə maksimum dərəcədə cox işləyin.

***Mahmudov Mirkamran (II qrup, 630 bal)*** - Test tapşırıqları ilə cox işləyin, müəllimlərin tarşırıq və məsləhətlərinə əməl edin. Özünüzə inanın, amma heç vaxt özünüzdən müştəbeh olmayın.

***Əmiraslanlı Xanlar (II qrup, 623 bal)*** - Çox oxumaq, vaxtı səmərəli bölmək, çoxlu sayda test həll etmək, sınaq imtahanlarında iştirak etmək, sınaqların nəticələrini təhlil edib nəticə çıxarmaq lazımdır. Oxu və istirahət rejimini düzgün qurmaq da vacib şərtlərdəndir.

***Məmmədova Ləman (II qrup, 617 bal)*** - Dərslərə ciddi yanaşsınlar, qarşılarına aydın məqsəd qoysunlar, ən əsası isə özlərinə inamlı olsunlar.

***Əhmədzadə Sənan (II qrup, 617 bal)*** - Qəbul imtahanlarına hazırlıq prosesində daim əzmlə çalışın. Heç vaxt özünüzdən razı qalmayın, eyni zamanda özünüzü qorxutmayın.

***Əliyev Maşdı (II qrup, 612 bal)*** - "İmtahan vermək çətindir" deyimi müəyyən mənada şərti xarakter daşıyan məsələdir. Çünki imtahanın çətinlik və asanlıq dərəcəsini bizim biliyimiz müəyyən edir. İstənilən fənni yaxşı öyrənməyin yolu onu həvəs və maraqla oxumaqdan keçir. Belə olduqda yaşanılan yuxusuz gecələr, yorğunluq, gərginlik və s. çətinliklər gözə görünmür. Sonda isə arzuedilən nəticəyə nail olunması bu çətinliklərin şirin bəhrəsi kimi qəbul olunur.

***Məhəmməd İsmayılov (III qrup, 700 bal)*** – Gələcək abituriyentlərə tövsiyə edərdim ki, heç vaxt ruhdan düşməsinlər, qarşılarına aydın məqsəd qoysunlar, məqsədlərinə nail olmaq üçün səylə çalışsınlar. Əzmkar və iradəli olsunlar. Aşağı siniflərdən başlayaraq dərslərini yaxşı oxusunlar. Yəni "11-ci sinifdə çox oxusam, kifayət edər", – deyə düşünməsinlər. Bu, yanlış fikirdir. Dərs oxumaqla bərabər, istirahətə də vaxt ayırsınlar. Testlərlə çox işləsinlər. Dərsləri bir dəfə oxumaqla kifayətlənməsinlər, hər cümləni diqqətlə bir neçə dəfə oxusunlar. TQDK-nın təşkil etdiyi sınaq imtahanlarında mütəmadi iştirak edib öz hazırlıq səviyyələrini yoxlasınlar. İmtahan vaxtı həyəcanlanmasınlar. Hər yerdə, həmişə özlərinə inamlı olsunlar.

***Nurlan Yusifli (III qrup, 691 bal)*** – Qəbul imtahanına sistemli hazırlaşsınlar. Test tapşırıqları üzərində mümkün qədər çox işləsinlər.

***Tərxan İsmayılzadə (III qrup, 680 bal)*** – Öz üzərlərində müntəzəm çalışsınlar. Bütün fənlərə eyni dərəcədə diqqət yetirsinlər. Fənlərdən birini digərindən üstün tutmasınlar. Çətinlik çəkdikləri mövzuları xüsusilə araşdırsınlar.

***Narxanım Həsənova (III qrup, 679 bal)*** – Məsləhət görərdim ki, mövzuları öyrəndikdən sonra onların təkrarına çox vaxt ayırsınlar. Oxuduqlarını dərindən mənimsəməyə çalışsınlar. Həmçinin, əvvəlki illərin sınaq və qəbul imtahanlarının test tapşırıqlarını işləsinlər.

***Esmira Tağıyeva (III qrup, 676 bal)*** – Vaxtlarını boş və mənasız işlərə sərf etməsinlər, elm öyrənib bilik qazansınlar. Elm dəyəri ölçülməyən, insana ömrün bütün pillələrində yararlı olan böyük sərvətdir.

***Rukiyyə Tağısoy (III qrup, 672 bal)*** – Qəbul imtahanına hazırlıq zamanı TQDK-nın nəşr etdiyi dərs vəsaitlərindən də istifadə etsinlər. Siniflər üzrə test topluları xüsusilə əhəmiyyətlidir. Sınaq imtahanlarında iştirak etmək də vacibdir.

***Ülkər Səfərova (III qrup, 669 bal)*** – Abituriyentlər özlərinə, öz biliklərinə güvənməlidirlər. Qarşılarına konkret məqsəd qoyub inamla ona doğru irəliləməlidirlər. Yalnız bu halda yüksək nəticə qazanmaq mümkündür.

***Ayşən Səfərova (III qrup, 660 bal)*** – Hər bir abituriyent bilməlidir ki, dərsləri vaxtlı-vaxtında hazırlamaqla, vaxtı düzgün bölüb ondan səmərəli istifadə etməklə və mütəmadi olaraq sınaq imtahanlarında iştirak etməklə uğurlu nəticə əldə etmək mümkündür.

***Mirhadı Səmidzadə (III qrup, 659 bal)*** – Məqsədyönlü, planlı və sistemli çalışsınlar. Testlər üzərində işləməyə və öyrəndiklərini təkrar etməyə vaxt ayırsınlar.

***Arzu Nəzərova (III qrup, 657 bal)*** – Hər bir abituriyent məktəbdə bütün dərsləri yaxşı mənimsəməlidir. Öz gücünə inanmalı və məqsədinə doğru qətiyyətlə addımlamalıdır. Hər kəsin zəhmətinin qarşılığı vardır. Biz abituriyentlərin isə zəhmətinin qarşılığı biliyimizə TQDK tərəfindən verilən obyektiv qiymətdir.

***Həşim Həşimli (III qrup, 655 bal)*** – Əsas məsələ çox oxumaq yox, planlı şəkildə oxumaqdır. Öyrənilən materiallar təkrarlanmalıdır. Bir də ki abituriyent imtahan proqramından çıxarılmış və proqrama yeni salınmış mövzular haqda mütləq məlumatlı olmalıdır.

***Pərviz Həsənli (III qrup, 651 bal)*** – Qəbul imtahanında yüksək bal toplamaq istəyən hər bir abituriyent özü üçün müəyyən iş-vaxt qrafiki qurmalıdır. Yuxu rejimi və istirahəti də düzgün tənzimləmək gərəkdir. Lüzumsuz məşğuliyyətlərdən mümkün qədər uzaq durmaq lazımdır.

***Zərxanım Nəhmətova (III qrup, 651 bal)*** – Qəbul imtahanına hazırlaşmaq üçün məktəb dərslərini son iki sinifdə yox, 11 il ərzində mütəmadi öyrənmək lazımdır. Son bir ildə isə daha çox çalışmaq, öyrənilənləri mümkün qədər çox təkrar etmək lazımdır. Min dəfə zirvəyə uzaqdan baxmaqdansa, bir dəfə zirvədən uzaqlara baxmaq daha yaxşıdır.

***Lalə Səfərli (III qrup, 650 bal)*** – Gələcək abituriyentlər biliklərini çoxlu test işləməklə daha da möhkəmləndirsinlər. Məncə, qəbul imtahanına repetitorsuz – müstəqil şəkildə də hazırlaşmaq mümkündür.

***Ramilə İsrafilli (III qrup, 647 bal)*** – Məktəbdə oxuyarkən bütün fənləri eyni səviyyədə öyrənmək lazımdır. Düzgün vaxt bölgüsü, məsuliyyət, çalışqanlıq, möhkəm iradə uğura təminat verir. Dərslikləri öyrənməklə bərabər TQDK-nın nəşr etdiyi materiallardan yararlanmaq qəbul imtahanına hazırlaşmağı nisbətən asanlaşdırır.

***Lalə İmanova (III qrup, 640 bal)*** – Məqsədlərinə çatmaq üçün çox çalışsınlar. Dərsləri yorulmadan, həvəslə öyrənsinlər. Sınaq imtahanlarına ciddi yanaşsınlar.

***Turanə Məmmədova (III qrup, 640 bal)*** – Qəbul imtahanında yüksək bal toplamaq üçün dərs oxumaqdan yorulmamaq, hər gün keçilənləri təkrar etmək, TQDK-nın təşkil etdiyi sınaq imtahanlarında iştirak etmək lazımdır.

***Aytac Nəbizadə (III qrup, 634 bal)*** – Bilik qazanmaq yolunda çəkilən heç bir zəhmət hədər getmir. Layiqli vətəndaş olmaq, ölkəmizin inkişafında önəmli rol oynayan şəxsə çevrilmək üçün təhsilli, savadlı, intellektli olmaq vacibdir. Gələcək abituriyent gərək qarşısına belə bir məqsəd qoysun.

***Lamiyə Əzizli (III qrup, 633 bal)*** – Abituriyent məktəbdə mütəmadi olaraq dərslərə ciddi hazırlaşmalı, ali məktəbə hazırlıq prosesinə çox məsuliyyətlə yanaşmalıdır. Zənnimcə, vaxtını düzgün bölməyi, həm dərslərə, həm də istirahətə vaxt ayırmağı bacaran abituriyent yaxşı nəticə əldə edə bilər.

*Aytən Məmmədova (III qrup, 631 bal)* – Abituriyent ali məktəbə qəbul olmaq üçün fərdi şəkildə, repetitorla və yaxud hazırlıq kursunda hazırlaşa bilər. Ancaq bütün hallarda abituriyentdə oxumağa, öyrənməyə istək olmalıdır. Özünüzdə bu istəyi formalaşdırın, səylə çalışın və nəticədə uğur sizinlə olacaq.

*Vüsalə Lətifova (III qrup, 630 bal)* – Qəbula hazırlaşarkən səbrli və iradəli olun. Bunlar insana güc verir. Rəqabət hissi də insanı irəli aparır. Özünüzü daim daha yüksək bilik və bacarığa malik abituriyentlərlə müqayisə edin.

*Aysel Qurbanova (III qrup, 630 bal)* – Qəbula hazırlaşarkən "Abituriyent" jurnalının bütün saylarını oxumaq imtahan prosesinin bütün mərhələləri haqda məlumatlanmağa imkan yaradır. Həmçinin mütəmadi olaraq sınaq imtahanlarında iştirak etmək imtahan həyəcanını dəf etməyə kömək edir.

*Gülçin Baharova (III qrup, 623 bal)* – Hər kəs bilməlidir ki, uğur qazanmaq üçün insana iki şey lazımdır: özünəinam və davamlı çalışmaq. Mən bunları etdim və zəhmətimin bəhrəsini gördüm. Gələcək abituriyentlərə də bu iki amilə əməl etməyi tövsiyə edirəm.

*Aytən Quliyeva (III qrup, 619 bal)* – Məktəb illərini boş-boşuna keçirmək olmaz. Dərsləri, mövzuları öyrənməyə aşağı siniflərdən başlamaq lazımdır.

*Əfsanə Əsgərova (III qrup, 615 bal)* – Dərslərinə ciddi yanaşsınlar. Mütəmadi olaraq sınaq imtahanlarında iştirak etməklə imtahan prosesinə adaptasiya olsunlar. İmtahanda diqqətli olsunlar.

*Nigar Ağayeva (III qrup, 608 bal)* – Fikrimcə, təkcə ali məktəbə qəbulda deyil, ümumiyyətlə, həyatın hər bir pilləsində uğur qazanmağın sirri insanın öz qarşısına aydın məqsəd qoyması, bu məqsədə nail olmaq üçün bütün gücü ilə mübarizə aparması və bu mübarizədə qalib gələcəyinə inanmasıdır. Əziz şagirdlər, qarşınıza aydın məqsəd qoyun, ona nail olmaq üçün sona qədər mübarizə aparın və nəticənin gözlədiyinizdən də yaxşı olacağına inanın.

*İlkin Kərimov (III qrup, 606 bal)* – Qəbul imtahanına hazırlaşan abituriyent əzmli olmalı, vaxtını boş-boşuna keçirməməli, özünə güvənməli və çalışmalarında məqsədyönlü olmalıdır.

*Səriyyə Zeynalova (III qrup, 605 bal)* – Qəbula hazırlaşarkən əsas şərt vaxtını səmərəli şəkildə bölüb sistemli bilik əldə edə bilməkdir.

*Nigar Teymurlu (III qrup, 605 bal)* – Qəbul imtahanına hazırlıq prosesi həm maraqlı, həm də məsuliyyətli mərhələdir. Məktəbdə təhsil aldığım illərdə davamlı çalışdığımdan qəbul imtahanı mənim üçün asan oldu. Əsas bilik məktəbdə qazanılır. Yaxşı oxusanız, mütləq uğur, nailiyyət qazanacaqsınız.

*Nigar Bayramova (III qrup, 605 bal)* – Qəbul imtahanına hazırlıq işini planlı təşkil etmək çox vacibdir. Şagird aşağı siniflərdən başlayaraq davamlı olaraq fənləri öyrənsə, mövzuları yaxşı mənimsəsə, qəbul imtahanında yüksək nəticə qazana bilər. Əsas bilik məktəbdə qazanılır, repetitorla hazırlaşarkən yalnız öyrəndiklərini təkrar etmiş olursan. Məktəbdə bilik qazanmamısansa, repetitorla hazırlıq sənə çox şey verə bilməz.

*Sevinc Səlimova (III qrup, 605)* – Yüksək müvəffəqiyyət əldə etmək üçün qarşınıza aydın məqsəd qoyun. Məqsədinizə çatmaq üçün davamlı surətdə çalışın. Unutmayın ki, hər bir çətinliyin sonu, sərf edilən əməyin nəticəsi qələbədir.

***Aysel Haqverdiyeva (IV qrup, 690 bal)*** – Şagirdlər dərslərinə gərək aşağı siniflərdən diqqətlə yanaşsınlar, hər bir fənn üzrə bilikləri sistemli şəkildə mənimsəsinlər. TQDK-nın nəşr etdiyi vəsaitlərdən də istifadə etsinlər. Bir məsləhətim də odur ki, hər bir abituriyent ixtisas qrupunu və ixtisası seçərkən öz bilik və bacarıq səviyyəsini nəzərə alsın, sevdiyi ixtisası, peşəni seçsin.

***Turan Babayeva (IV qrup, 680 bal)*** – Qəbula hazırlığın başlanğıcında qazanacaqları nəticəni hesablamağa çalışsınlar və bunu özlərinin fəaliyyət motivasiyasına çevirsinlər. Hər zaman inamla çalışsınlar.

***Səkinə Nəcəfova (IV qrup, 680 bal)*** – Qəbul imtahanına hazırlaşarkən bütün fənlərə eyni dərəcədə məsuliyyətlə yanaşsınlar. Heç bir çətinliyə baxmayaraq, ruhdan düşməsinlər.

***Aynur Bəylərzadə (IV qrup, 677 bal)*** – Abituriyent üçün ən mühüm amil onun öz potensialına olan inamıdır. Təbii ki, özünəinam sistemli və planlı hazırlığın nəticəsində yaranır. Bundan əlavə, sınaq imtahanlarında iştirak etmək, test tapşırıqları üzərində işləmək vərdişlərinə yiyələnmək də uğur qazanmağa yardım edir.

***Rəna Seyidli (IV qrup, 676 bal)*** – Yüksək nəticə əldə etmək üçün davamlı və sistemli şəkildə çalışmaq lazımdır. Bunun üçün isə abituriyentdən əzm və iradə tələb olunur.

***Leyla Vəliyeva (IV qrup, 675 bal)*** – Abituriyent bilməlidir ki, yalnız sistemli çalışmaqla, bütün mövzuları diqqətlə öyrənməklə, vaxtını düzgün bölməklə tələbə adı qazanmaq olar.

***Cəmilə Kərimova (IV qrup, 673 bal)*** – Abituriyent yalnız son bir və ya iki il ərzində gərgin rejimdə hazırlaşıb imtahanda yüksək nəticə əldə edəcəyinə ümid olmamalıdır. Dərsləri aşağı siniflərdən başlayaraq mütəmadi yaxşı oxumaq lazımdır. Bu, şagirdin sonuncu sinfə qədər sistemli biliyə yiyələnməsini təmin edir. Bir də məsləhət görərdim ki, qəbula hazırlıq dövründə əyləncələrə sərf olunan vaxtı minimuma endirsinlər.

***Fəxriyyə İsmayılova (IV qrup, 665 bal)*** – Gələcək abituriyentlərə dərslərə diqqətlə, məsuliyyətlə yanaşmağı tövsiyə edirəm. Yadda saxlasınlar, öyrənməyin əziyyəti müvəqqəti, savadsızlığın əzabı isə əbədidir.

***Mətanət Cəfərova (IV qrup, 661 bal)*** – Gələcək abituriyentlərə məsləhət görərdim ki, dərslərlə yanaşı, idman, gəzinti və istirahətə də vaxt ayırsınlar. Çünki yüksək nəticənin əldə olunmasında sağlamlıq və fiziki hazırlığın da rolu vardır.

***Sona Məmmədzadə (IV qrup, 657 bal)*** – Abituriyentlərə tövsiyəm budur ki, qarşılarına konkret və aydın məqsəd qoysunlar. Aydın məqsəd varsa, hər şeyə nail olmaq olar.

***Aygün Alıyeva (IV qrup, 655 bal)*** – Abituriyentlər imtahan verəcəyi ixtisas qrupunu həqiqətən sevib seçsinlər. Bilik və bacarıqlarını həm arzularına, həm də potensiallarına uyğun sahəyə yönəltsinlər.

***Sona Əsgərova (IV qrup, 652 bal)*** – Birincisi, düzgün istiqamət seçsinlər. İkincisi, dərslərə hazırlıqda əzbərçilikdən uzaq olsunlar. Üçüncüsü, bilikləri yalnız test tapşırıqlarını düzgün cavablandırmaq üçün yox, ən mühümü onlardan gələcəkdə istifadə edə bilmək üçün öyrənsinlər.

***Ülkər Xəlilova (IV qrup, 642 bal)*** – Yadda saxlasınlar ki, məktəbdə aşağı siniflərdən mütəmadi olaraq dərslərə yaxşı hazırlaşmaq, tapşırıqları vaxtlı-vaxtında yerinə yetirmək gələcəkdə arzuladıqları ali təhsil müəssisəsinə daxil olmağa kömək edir.

***Aytac Bədəlova (IV qrup, 640 bal)*** – Qəbula hazırlaşarkən fənlər arasında vaxtı düzgün

bölmək, mövzuları öyrənərkən bütün təfərrüatlara diqqət yetirmək vacibdir.

*Müzəffərli Rəşadət (IV qrup, 639 bal)* – İmtahana hazırlıq prosesində konkret məqsədin olmalıdır. Vaxtı düzgün bölmək, mütəmadi təkrarlar, lazımi qədər istirahət də vacibdir.

*Nərminə Musayeva (IV qrup, 636 bal)* – Qəbula hazırlaşarkən vaxt bölgüsünə xüsusi diqqət yetirmək lazımdır. Dərsləri çox oxumaqla bərabər, onları təkrarlamağa da vaxt ayırmaq, məsuliyyət, əzmkarlıq, iradə, prinsipiallıq, özünəinam hissi və psixoloji hazırlıq uğura aparan ən etibarlı yoldur. Bir məsləhətim də odur ki, abituriyentlər TQDK-nın nəşr etdiyi dərs vəsaitlərindən və fənlər üzrə test toplularından istifadə etməyə xüsusi diqqət yetirsinlər.

*Aygün Aqilova (IV qrup, 631 bal)* – Ali məktəbə qəbulda yüksək uğur qazanmaq üçün dərsləri sistemli, planlı şəkildə oxumaq, mütəmadi olaraq testlərlə işləmək, sınaq imtahanlarında iştirak etmək lazımdır. Hər bir abituriyent bilməlidir ki, taleyi öz əlindədir və yalnız öz üzərində müntəzəm çalışmaqla uğurlu gələcəyinin təməlini qoya bilər.

*Nəzrin Qədirli (IV qrup, 630 bal)* – Qəbulda yüksək nəticə əldə etmək üçün əsas şərt çox çalışmaqdır. Bununla belə, imtahan zamanı testləri cavablandırarkən çox diqqətli olmaq lazımdır. Kiçik diqqətsizlik uğursuz nəticəyə səbəb ola bilər.

*Nuranə Bayramova (IV qrup, 624 bal)* – Qəbul imtahanına hazırlaşarkən mövzuları əzbərləmək düzgün deyil, hər bir mövzunu dərk etmək, araşdırmaq, dərindən öyrənmək lazımdır.

*Emin Məmmədov (IV qrup, 606 bal)* – İmtahanda müvəffəqiyyətin açarı hər kəsin öz əlindədir. Bunun üçün qarşıya konkret məqsəd qoymaq lazımdır. İnsan qarşısına konkret məqsəd qoyanda ona çata bilmək üçün var gücü ilə çalışır.

Sorğu materiallarında əksini tapmış yuxarıdakı məsləhət və tövsiyə nümunələrindən göründüyü kimi, bilik yarışı öncüllərinin qəbul imtahanına hazırlıq mərhələsində və imtahan prosesində üstünlük verdikləri amillər mahiyyət etibarilə praktikidir. Gələcək abituriyentlərin işini bir qədər də asanlaşdırmaq üçün qəbul imtahanına hazırlıqla bağlı həmin məsləhət və tövsiyələri belə ümumiləşdirmək olar:

**Əzmkarlıq, çalışqanlıq, diqqətlilik, ciddilik, özünə tələbkarlıq və məsuliyyətlilik;**
**Düzgün vaxt bölgüsü aparmaq,**
**Hazırlıq işini sistemli-planlı qurmaq;**
**Çoxlu sınaq imtahanlarında iştirak etmək;**
**Özünə güvənmək, öz gücünə inanmaq;**
**Qarşıya aydın və konkret məqsəd qoymaq;**
**Test tapşırıqları üzərində çox işləmək;**
**Dərsliklərdən əlavə TQDK-nın vəsaitlərindən də istifadə etmək;**
**Aşağı siniflərdən başlayaraq yaxşı oxumaq və qəbula hazırlığa başlamaq;**
**Keçilən dərsləri və mövzuları mütəmadi təkrarlamaq;**
**Şagirdləri yalnız imtahan naminə oxumağa deyil, ümumiyyətlə, elm, bilik öyrənməyə çağırmaq;**
**İstirahət rejimini də düzgün qurmaq;**
**Lüzumsuz məşğuliyyətlərdən uzaq olmaq;**
**Düzgün, düşünülmüş ixtisas seçimi etmək.**

TQDK belə hesab edir ki, bilik yarışı öncüllərinin bu məsləhət və tövsiyələri gələcək abituriyentlərə çox fayda verə bilər. Onlar bu məsləhət və tövsiyələrdən bəhrələnməklə imtahana hazırlıq məsələsinə daha düşünülmüş, yaradıcı və səriştəli yanaşa bilərlər. Çünki bu məsləhət və tövsiyələr kifayət qədər işlək və inandırıcıdır. Dünənki abituriyentlər qəbul imtahanında əldə etdikləri yüksək nəticələrə məhz bu amillərə ciddi riayət etməklə nail olublar. Başqa sözlə onların tövsiyələri özlərinin real təcrübələrinə əsaslanır. Bir sözlə, bu tövsiyələr artıq sınaqdan çıxmış, etibarlı hazırlıq yoludur.

**Anket sorğusu iştirakçılarına "Əlavə demək istədiyiniz fikirlər, arzular, təkliflər" xitabı ilə müraciət olunmuşdu. Aşağıda həmin müraciətə cavablardan daha çox maraq doğuran nümunələri təqdim edirik:**

## Rəylər, təkliflər, arzular

***Cəbrayılov Məmməd (I qrup, 690 bal)*** - İstərdim ki, qəbul imtahanında abituriyentlər tək-tək otursunlar. Sınaq imtahanlarının sayının artırılmasına da ehtiyac var.

***Səidzadə Asiman (I qrup, 670 bal)*** - Açıq tipli testlər bəzi qruplarda əsas fənlərin bloklarına, bəzilərində isə ikinçi dərəcəli fənlərin bloklarına daxil edilir. Fikrimcə, bu, yekun nəticəyə təsir edir. Bununla bağlı daha optimal həll üsulu tapılsa yaxşı olar.

***Həsənli Elvin (I qrup, 652 bal)*** - Bəzi adamlar belə fikirləşir ki, kənd məktəblərində savadlı, səviyyəli müəllimlər yoxdur. Bu, çox səhv yanaşmadır. Mən kənddə oxumuşam, hazırlaşmışam və müəllimlərimdən də çox razı qalmışam. Onların qarşısında baş əyirəm.

***Əlili Ülvi (I qrup, 607 bal)*** - Açıq tipli testlərin uyğunluğun müəyyən edilməsi ilə bağlı növündə uyğunluğun bir neçəsini müəyyən edib birini etməyəndə bu cavab səhv sayılır. Yaxşı olardı ki, düz cavaba verilən 4 bal və ya 8 bal mütənasib bölünsün.

***Əliyev Mikayıl (II qrup, 655 bal)*** - Təklif edərdim ki, sınaq imtahanlarının sayı artırılsın. Valideyin və abituriyentlərin maarifləndirilməsi üçün seminarlar təşkil olunsun. Qəbul öncəsi abituriyentlərə psixoloji yardım göstərilsin.

***Həsənova Aida (II qrup, 649 bal)*** - Məncə, müsabiqə şərtinin aşağı olması abituriyentlərin bilik səviyyəsinin də aşağı olmasına səbəb olur. Buna görə də təklif edirəm ki, müsabiqə şərti 250 baldan aşağı olmasın.

***Əliyev Qurban (II qrup, 647 bal)*** - II ixtisas qrupunda coğrafiya və riyaziyyat fənnindən açıq tipli test tapşırıqlarının həlli əlavə vaxt tələb edir. Buna görə də ya imtahan vaxtının uzadılmasını, ya da açıq tipli sualların tipinə və çətinlik dərəcəsinə analoji qiymət (bal) verilməsini təklif edirəm.

***Şirəliyev Babək (II qrup, 644 bal)*** - Qəbul imtahanındakı testlərdən çoxunun yaddaş yönümlü deyil, analitik yönümlü olmasını istərdim. Həmçinin testlərdə, xüsusulə, açıq tipli testlərdə mübahisəli məsələlərin qoyulmamasını, bir də ki, açıq tipli testlərin həlli çox vaxt apardığı üçün imtahan vaxtının bir qədər uzadılmasını təklif edərdim.

***İsmayılov Əliş (II qrup, 642 bal)*** - Təklif edərdim ki, məntiqi və açıq tipli testlərdən ibarət test toplusu tərtib edilsin, topluya abituriyentlərin tərtib etdikləri dəyərli testlər də daxil

edilsin. Bir də istərdim ki, Spase televiziya kanalının "Abituriyent" verlişində ali məktəblərimiz barədə informasiyalarla zəngin süjetlər verilsin. Bu, bizlərə ixtisas və ali məktəb seçimində daha düzgün qərar qəbul etməyə kömək edər.

*Məmmədova Gülüstan (II qrup, 619 bal)* - Valideynlərdən xahiş edirəm ki, qəbul imtahanlarına hazırlıq müddətində uşaqlarınızı çox sıxışdırmayın, stresə salmayın. Bu, qəbula hazırlıq prosesində onsuz da narahatlıq, həyəcan keçirən abituriyentlərə əlavə psixoloji gərginlikdən başqa heç nə vermir.

*Vaqifzadə Bəxtiyar (II qrup, 617 bal)* - Qəbul imtahanında açıq tipli testlərin həlli daha çox vaxt tələb etdiyi üçün imtahan vaxtının uzadılmasını və test suallarında abituriyentlərin məntiqi təfəkkürünü yoxlayan mövzuların daha geniş əhatə olunmasını təklif edirəm.

*Məhəmməd İsmayılov (III qrup, 700 bal)* – İstərdim ki, gələcəkdə bizim ölkədə də qəbul imtahanları elektron formada keçirilsin.

*Nərmin Məmmədli (III qrup, 700)* – TQDK-nın bu il regionlarda keçirdiyi qəbul imtahanları abituriyentlərin nəticələrinə müsbət təsir göstərdi. Çünki abituriyentlər əvvəlki illərdə olduğu kimi çox vaxt itirərək uzun məsafə qət edib qəbul imtahanı keçirilən yerlərə getməli olmadılar. Bu hal həm də onların ailələrinə maddi cəhətdən dəstək oldu.

*Əli Paşayev (III qrup, 615 bal)* – Məncə, açıq tipli test tapşırıqları digər fənlər üzrə test blokuna da salınmalıdır. Çünki bu tip testlər şagirdin analitik təfəkkürünün inkişafına çox kömək edir.

*Nizami Mehtili (III qrup, 615 bal)* – Düşünürəm ki, açıq tipli testlər hər bir ixtisas qrupunda əsas fənlər blokuna salınmalıdır. Bu tip testlər zehni qabiliyyəti inkişaf etdirən yaxşı üsuldur.

*Leyla Vəliyeva (IV qrup, 675 bal)* – Təklif edərdim ki, qəbul imtahanlarında faktoloji sualların sayı azaldılsın, məntiqi testlərin sayı artırılsın.

*Cəmilə Kərimova (IV qrup, 673 bal)* – Açıq tipli testlər abituriyentdən biliklə yanaşı, diqqətli olmağı da tələb edir. Açıq testlər hazırlıq səviyyəsi yüksək olanların biliyini nümayiş etdirməsi üçün ən yaxşı vasitədir.

*Rəna Əliyeva (IV qrup, 628 bal)* – 600-dən yuxarı bal toplayan abituriyentlərin hamısının ödənişsiz təhsil almalarını – dövlət sifarişi əsasında oxumalarını istərdim. Bu balı toplamaq heç də asan deyil. Buna bizim – qəbul imtahanında 600-dən yuxarı bal toplayan abituriyentlərin haqqı var.

Əziz şagirdlər, sizə builki bilik yarışı öncülləri ilə keçirilmiş anket sorğunun materiallarından, onların məsləhət və tövsiyələrindən yararlanmağı, qəbul imtahanlarına hazırlaşarkən onların təcrübəsindən bir örnək, nümunə kimi yaradıcı şəkildə istifadə etməyi məsləhət görürük.

***Materialı hazırladılar:***
*"Abituriyent"in analitik-informasiya qrupunun üzvləri*
*Sədi Nuriyev*
*Məhbubə Yusubova*
*Zöhrə Əliyeva*
*Rabil Novruzov*



*Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına hər il imtahanların təşkili, gedişi və nəticələri ilə bağlı çoxlu sayda yazılı və elektron məktublar, teleqram və müraciətlər daxil olur. Eyni zamanda abituriyentlər arasında aparılan anket sorğusuna cavablarda bu məsələlərə münasibət bildirilir. Burada ictimai rəyin əks-sədası olan belə materiallardan bir neçə nümunəni dərc edirik.*

# MƏKTUBLARDAN SƏTİRLƏR

**Tələbə Qəbulu Üzrə Dövlət Komissiyasına!**

Salam. İlk öncə, ali məktəbə daxil olan tələbələri ürəkdən təbrik edirəm. İmtahanda belə ədalətli və obyektiv şərait yaratdığınız üçün Sizə minnətdaram.

Mən, 2013-cü ilin məzunuyam. Bakı şəhəri, Nərimanov rayonu Bağça-məktəb-lisey kompleksini fərqlənmə ilə bitirmişəm. III ixtisas qrupu üzrə imtahan vermişəm və 539 bal toplamışam. Arzuladığım universitetə və ixtisasa, yəni ADU-nun xarici dil (ingilis dili) müəllimliyi ixtisasına dövlət sifarişi ilə daxil olmuşam.

Bizim nailiyyətimizdə TQDK-nın əvəzsiz rolu var. TQDK-nın sınaq və qəbul imtahanlarını yüksək səviyyədə təşkil etməsi bizlərə böyük kömək oldu. Qəbul imtahanlarının bölgələrdə də keçirilməsi orada yaşayanların işini xeyli asanlaşdırdı.

Bir sözlə, TQDK hər il olduğu kimi bu il də abituriyentlərin öz bilik və savadını yüksək səviyyədə nümayiş etdirməsinə şərait yaratdı və inanıram ki, bundan sonra da öz missiyasını layiqincə yerinə yetirəcək.

Mən şərəfli tələbə adını qazandığıma görə bir daha müəllimlərimə və Sizə təşəkkürümü bildirirəm.

**Hörmətlə, Nigar Abbasova**
**Azərbaycan Dillər Universitetinin Xarici dil**
**(İngilis dili) ixtisasının**
**I kurs tələbəsi**

**Tələbə Qəbulu Üzrə Dövlət Komissiyasının sədri**
**M.Abbaszadəyə**

Bu məktubu yazmaqda məqsədim Sizə və rəhbərlik etdiyiniz kollektivə qəbul imtahanlarının obyektiv və ədalətli keçirilməsinə görə öz təşəkkürümü bildirməkdir. Mən – Məmmədli Nərmin bu il III qrup üzrə keçirilmiş qəbul imtahanında 700 bal toplayaraq DİA-nın hüquqşünaslıq ixtisasına qəbul olmuşam.

Bu uğuru qazanmağımda TQDK-nın qəbul imtahanına hazırlıq tədbirlərinin də mühüm rolu olmuşdur. Hazırlıq müddətində mən təkcə dərsliklərlə deyil, həm də TQDK-nın nəşr etdiyi vəsaitlər və test kitablarından da faydalanmış və onlardan hərtərəfli bilik əldə etmişəm. Düşünürəm ki, mənim bu nailiyyətimdə həmin vəsaitlərin xüsusi rolu olub.

Sizə fəaliyyətinizdə daha böyük uğurlar arzulayır və bir daha öz təşəkkürümü bildirirəm.

*Nərmin Məmmədli*
*Azərbaycan Respublikası Prezidenti yanında*
*DİA-nın Hüquqşünaslıq ixtisasının*
*I kurs tələbəsi*

**Tələbə Qəbulu Üzrə Dövlət Komissiyasının sədri**
**M.Abbaszadəyə**

**Hörmətli Məleykə xanım!**

Mən bu il akademik Z.Əliyeva adına liseyi bitirmişəm. 667 bal toplayaraq Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olmuşam.

Tələbə adını qazanmağım Sizin rəhbərlik etdiyiniz qurumun – TQDK-nın qəbul imtahanlarını obyektiv və şəffaf keçirməsinin nəticəsidir.

TQDK-nın nəşrləri (test kitabları, dərs vəsaitləri və s.) hər bir abituriyenti düzgün istiqamətləndirir və ona keçdiyi çətin yolda dayaq olur.

Öz adımdan və ailəmizin adından Sizə hədsiz minnətdarlığımızı bildirir və gələcək işlərinizdə uğurlar arzulayırıq.

**Hörmətlə, Səbinə Quliyeva**
*Azərbaycan Tibb Universitetinin*
*Müalicə işi ixtisasının I kurs tələbəsi*

# ANKET SORĞUSUNA CAVABLARDAN NÜMUNƏLƏR

TQDK-ya, onun rəhbərliyinə dərin təşəkkürümü bildirmək istəyirəm. Bu təşkilatın sayəsində bütün zəhmət çəkən abituriyentlər öz arzularına çataraq istədikləri ali məktəbə daxil ola bilirlər. Artıq tələbə qəbulu prosesində varlı-kasıb anlayışı sıradan çıxıb.

*Teymur İsmayılov*
*Azərbaycan Tibb Universitetinin*
*Müalicə işi ixtisasının I kurs tələbəsi*

Qəbul imtahanlarının yüksək səviyyədə təşkil olunmasında əməyi olan hər kəsə dərin təşəkkürümü bildirirəm. Arzu edirəm ki, qəbul imtahanları gələn illərdə də belə yüksək səviyyədə keçirilsin.

*Səidə Ələsgərova*
*Bakı Ali Neft Məktəbinin*
*Kimya mühəndisliyi ixtisasının*
*I kurs tələbəsi*

Bilik və bacarığımızı üzə çıxarmaq üçün, rahat imtahan verə bilməyimiz üçün hər cür şərait yaratdığına görə TQDK-nın sədri Məleykə xanım Abbaszadəyə və onun rəhbərlik etdiyi kollektivə minnətdarlığımı bildirirəm.

*Əmanət Ağazadə*
*Azərbaycan Tibb Universitetinin*
*Müalicə işi ixtisasının*
*I kurs tələbəsi*

Abituriyentlərin biliklərini tamamilə ədalətli və obyektiv qiymətləndirdiyinə görə TQDK-ya təşəkkürümü bildirirəm.

*Arif Sadıqlı*
*Bakı Ali Neft Məktəbinin*
*Neft-qaz mühəndisliyi ixtisasının*
*I kurs tələbəsi*

**REDAKSİYA ŞURASI**
M.M.Abbaszadə, N.Ə.Babayev, F.Ş.Bədəlbəyli, A.Q.Abiyev, Ə.T.Əmiraslanov, A.M.Məhərrəmov, P.A.Nağıyev, A.M.Paşayev.

**REDAKSİYA HEYƏTİ**
T.A.Bədəlov (baş redaktor), R.H.Novruzov (baş redaktorun I müavini), İ.M.Allahverdiyev, A.H.Bağırov, G.M.Balacanova, A.H.Batıyeva, N.N.Bayramova, M.Ə.Əkbərli, V.O.Əkbərov, N.L.Əliyev, X.S.Əzimova, A.E.Həbibov, S.T.Həsənzadə, N.Z.Hüseynova, Ç.C.Xəlilov, X.Z.Kərimova, A.Ə.Qasımov, N.İ.Məmmədova, S.S.Mərdanov, C.F.Orucov, Ç.İ.Rüstəmov, O.Y.Şelaginov, H.R.Zeynalov.

**Dİl və üslub üzrə redaktorlar:**
R.H.Novruzov., N.M.Musayev

**Kompyuter və dizayn:**
M.Ə.Bədəlov, İ.İ.Cəfərov, A.Ə.Axundova.

**Redaksiyanın ünvanı:**
AZ1078, Bakı şəhəri, Akademik Həsən Əliyev küçəsi, 17.

**Telefon:**
440-30-09 (TQDK)
441-52-20 (redaksiya).

**E-mail:**
abit@tqdk.gov.az

**http:**
www.abiturient.az

Jurnal Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. (Lisenziya B 171, 18 fevral 1999)

**© TQDK - «Abituriyent»**

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının rəsmi razılığı olmadan jurnalın və ya onun hər hansı hissəsinin təkrar çapı, yayılması, elektron və ya mexaniki üsulla surətinin çıxarılması
**QADAĞANDIR!**

Jurnal Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının rəsmi materialları əsasında hazırlanmışdır.

Çapa imzalanmışdır 14.11.2013.
Tiraj 500.

Jurnal "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.

Reklam materiallarının məzmununa görə redaksiya cavabdeh deyil.

# Mündəricat

1 PREZİDENT TƏQAÜDÜNÜN VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI
2 AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏKTƏB TƏLƏBƏLƏRİ ÜÇÜN PREZİDENT TƏQAÜDÜNÜN ARTIRILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
3 TQDK-nın SƏDRİ M.ABBASZADƏNİN TƏBRİK VƏ TÖVSİYƏLƏRİ
4 PREZİDENT TƏQAÜDÇÜLƏRİ HAQQINDA MƏLUMAT
8 QƏBUL İMTAHANLARINDA 600-dən YUXARI BAL TOPLAMIŞ GƏNCLƏR HAQQINDA MƏLUMAT
11 ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ GƏNCLƏRLƏ MÜSAHİBƏLƏR
26 YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR
28 I QRUP
51 II QRUP
68 III QRUP
94 IV QRUP
116 QƏBUL İMTAHANLARINDA YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ GƏNCLƏRLƏ ANKET SORĞUSUNUN NƏTİCƏLƏRİ
120 BİLİK YARIŞI ÖNCÜLLƏRİNİN GƏLƏCƏK ABİTURİYENTLƏRƏ MƏSLƏHƏT VƏ TÖVSİYƏLƏRİ
128 RƏYLƏR, TƏKLİFLƏR, ARZULAR
130 MƏKTUBLARDAN SƏTİRLƏR

## "Abituriyent" jurnalının 12-ci sayında:

- 2012/2013-CÜ TƏDRİS İLİ ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASININ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN BAKALAVRİAT SƏVİYYƏSİNƏ TƏLƏBƏ QƏBULUNUN NƏTİCƏLƏRİNİN ELMİ-STATİSTİK TƏHLİLİ
- ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ DÖVLƏT SİFARİŞİ ƏSASINDA TƏLƏBƏ QƏBULUNUN NƏTİCƏLƏRİ
- ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ ÖDƏNİŞLİ TƏHSİL FORMASI ÜZRƏ TƏLƏBƏ QƏBULUNUN NƏTİCƏLƏRİ
- DÖVLƏT VƏ ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULUNUN MÜQAYİSƏLİ TƏHLİLİ
- XÜSUSİ TƏYİNATLI TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULUNUN NƏTİCƏLƏRİ
- BÖLGƏLƏR ÜZRƏ 2013-CÜ İL MƏZUNLARININ QƏBUL İMTAHANLARINDAKI NƏTİCƏLƏRİNİN TƏHLİLİ
- ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MAGİSTRATURA SƏVİYYƏSİNƏ QƏBUL
- REZİDENTURAYA QƏBUL
- ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ TAM ORTA VƏ ÜMUMİ ORTA TƏHSİL BAZALARINDA TƏLƏBƏ QƏBULUNUN NƏTİCƏLƏRİ
- TQDK-NIN İCTİMAİYYƏTİN İSTİFADƏSİNƏ VERİLMİŞ NƏŞRLƏRİ HAQQINDA MƏLUMAT
- TQDK-NIN 2013-CÜ İLDƏ FƏALİYYƏTİ: FAKTLARIN XRONOLOGİYASI